12 iyul 2024 №52 (2117)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Tarixi Zəfərə doğru qəhrəmanlıq cəngi

2020-ci ilin Tovuz döyüşləri (12-16 iyul) Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsində xüsusi yer tutur. 2016-cı il şanlı Aprel döyüşlərindən sonra 2020-ci ilin Tovuz döyüşləri Vətən müharibəsində tarixi Zəfərə doğru gedən yolda önəmli mərhələ idi. Bu döyüşlər, əslində, Vətən torpaqları uğrunda böyük savaşın artıq yaxın olduğunu göstərən qəhrəmanlıq cəngi, bu yolda xalq-ordu birliyinin ilk nümayişi idi.



2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində mövqelərimizi müxtəlif çaplı silahlardan atəşə tutaraq hücuma keçməyə cəhd göstərib. Görülən adekvat tədbirlər nəticəsində düşmənə zərbə endirilib və o, itki verərək geri oturdulub.

İyulun 13-nə keçən gecə Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq məqsədilə artilleriya qurğularından da istifadə etməklə Ordumuzun mövqelərinə, o cümlədən rayonun Ağdam kəndinə yenidən atəş açıb. Düşmənin bu təxribatlarına qarşı qoşunlarımız tərəfindən sərt cavab tədbirləri görülüb.

Həmin gün Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Bölmələrimiz düşmənin təxribatlarının qarşısının alınması məqsədilə cəza tədbirləri həyata keçiriblər.

Şiddətli döyüşlər iyulun 14-nə keçən gecə və səhər saatlarında davam edib. Böyük itki verən düşmən geri çəkilib.

*davamı səh. 2-də*

## Tərəflər sülh razılaşmasına yaxındır

İyulun 10-da Vaşinqtonda NATO-nun 75 illiyinə həsr olunmuş sammit çərçivəsində ABŞ dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib.

Antoni Blinken bildirib ki, Azərbaycan və Ermənistan danışıqlar, o cümlədən dayanıqlı, layiqli və hər iki ölkə, region və ABŞ ilə əlaqələr üçün böyük imkanlar yaradan sülh danışıqları istiqamətində vacib işlər görüblər.

"ABŞ Avropa İttifaqı və digər həmkarları ilə birlikdə bu prosesə dəstək verib. Bugünkü görüş əldə olunmuş irəliləyişləri nəzərdən keçirmək üçün bir fürsətdir. Bütün təmaslar, o cümlədən son həftələrdə aparılan müzakirələrə əsasən düşünürəm ki, tərəflər ABŞ-nin də güclü şəkildə dəstəklədiyi sülh razılaşmasını əldə etməyə yaxındır", – deyə A.Blinken qeyd edib.

ABŞ Dövlət Departamenti də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü barədə rəsmi açıqlama yayıb. Məlumatda bildirilir ki, dövlət katibi dayanıqlı və layiqli sülh sazişi istiqamətində əldə olunmuş irəliləyiş barədə müzakirə aparıb və tərəfləri mümkün qədər tez bir zamanda razılaşdırmanı yekunlaşdırmaq üçün gələcək addımları atmağa həvəsləndirib.

## Postprodakşn mərhələsində olan 6 filmə dəstək veriləcək

Azərbaycan Respublikasının Kino Agentliyi may ayında postprodakşn mərhələsində olan film layihələrinin tamamlanma işlərinin dəstəklənməsi məqsədilə müsabiqə elan etmişdi.

Tammetrajlı bədii və sənədli, qısametrajlı bədii, sənədli və animasiya filmləri kateqoriyasında keçirilən müsabiqəyə ümumilikdə 9 layihə ilə bağlı müraciət edilib. Bədii şura tərəfindən dəyərləndirmə aparıldıqdan sonra 6 layihəyə dövlət dəstəyi verilməsi ilə bağlı qərar qəbul olunub.

*səh. 3*

## TÜRKSOY 31 yaşında

İyulun 12-si Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un yaradılmasının 31-ci ildönümüdür. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin iştirakı ilə Almatı şəhərində keçirilən toplantıda "Türk Kültür və Sənətləri Ortaq Yönətimi"nin (TÜRKSOY) yaradılması haqqında saziş imzalanıb. Qurum 2009-cu ildən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanır. TÜRKSOY-un Katibliyi Ankara (Türkiyə) şəhərində yerləşir.

TÜRKSOY-un 6 qurucu üzv ölkəsindən savayı, Şimali Kipr Türk Cümhuriyyəti, eləcə də Rusiya Federasiyasının Altay, Başqırdıstan, Tatarıstan, Tıva, Xakasiya və Saxa-Yakut respublikaları, Moldovanın Qaqauz Yeri muxtar bölgəsi təşkilatda müşahidəçi üzvlük statusuna malikdir.

*davamı səh. 2-də*

# Azərbaycan və Pakistan arasında mədəni mübadilə proqramı imzalanıb

### Prezident İlham Əliyevin qardaş ölkəyə dövlət səfəri əlaqələrin bütün sahələrinə təkan olacaq







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Pakistan İslam Respublikasına dövlət səfərinə gəlib.

Azərbaycan Prezidentinə xüsusi hörmət əlaməti olaraq dövlətimizin başçısının təyyarəsini Pakistanın hava məkanında bu ölkənin Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri qarşılayıb və enənədək müşayiət edib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentinin şərəfinə toplardan yaylım atəşi açılıb.

Prezident İlham Əliyevi Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif qarşılayıb.

***

Prezident İlham Əliyev səfər proqramında öncə İslamabadda milli abidəni ziyarət edib.

Azərbaycanın və Pakistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısı milli abidənin önünə əklil qoyub.

"Quran"dan "Fatihə" surəsi oxunub.

Pakistan xalqının milli birliyini təcəssüm etdirən abidənin inşasına 2004-cü ildə başlanılıb. 2007-ci il martın 23-də (Pakistanın Müstəqillik Günü) abidənin açılışı olub.

***

Pakistanda dövlət səfərində olan Azərbaycan Prezidentinin iyulun 11-də İslamabadda rəsmi qarşılanma mərasimi keçirilib.

Baş nazir Məhəmməd Şahbaz Şərif Prezident İlham Əliyevi qarşılayıb.

Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçib.

Pakistan nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Baş nazir Məhəmməd Şahbaz Şərifə təqdim olunub.

***



İyulun 11-də İslamabadda Azərbaycan Prezidenti İlham Əliyevin Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə məhdud tərkibdə görüşü olub.

Sonra geniş tərkibdə görüş keçirilib.

*davamı səh. 2-də*

## İtalyan arxeoloqların "Tava-təpə" tapıntısı




İtaliyanın Kataniya Universitetinin arxeoloqları Azərbaycanın Ağstafa rayonundakı Son Tunc dövrünə aid "Tava-təpə" qədim yaşayış məskənində keramik qab və 3500 il yaşı olan ayin məsası tapıblar.

Bununla bağlı "Heritage Daily" portalında dərc edilmiş məqalədə təxmin edilir ki, "Tava-təpə" Kür çayı hövzəsi ilə Qafqaz dağları arasında məskunlaşan köçəri tayfalar üçün istirahət məkanı ola bilərdi.

Məqalədə bildirilir ki, qazıntılar zamanı ayin süfrəsi və yaxşı qorunub saxlanılmış keramika qabları, o cümlədən manqal üçün gövdələr olan dairəvi gil konstruksiya aşkar edilib. Qazıntı sahəsinə səpələnmiş kasa və digər bişmiş keramika qablarının qırıqları burada qalan qədim köçərilərin yeməklərini keramika qablarda bişirdiyini göstərir.

Alimlərin fikrincə, konstruksiyaya giriş əvvəlcə taxta dirəklərlə təmin edilib, damı isə samanla örtülüb. Perimetr boyunca sütun çuxurları strukturun ölçüsünü hesablamağa imkan verir; onun diametri təxminən 15 metr olub.

*davamı səh. 2-də*

## Onun ödədiyi ağır bədəllər...

Çox sevdiyim Çingiz Aytmatovun belə bir fikri var: "Bütün hisslərin izahı olmadığı kimi, onları təsvir edəcək sözlər də yoxdur". Azərbaycan kino tarixində rejissor nəslini gözdən keçirdikdə Niyazi Bədəlovu xatırlayıb köks ötürürəm...



O, görkəmli rus kinorejissoru, bu sahədə məktəb yaradan Sergey Eyzenşteynin emalatxanasında təhsil almış cəmi iki azərbaycanlı tələbədən (digəri Səməd Mərdanovdur) biridir. Üstəlik, rejissor kimi sənədli kino tariximizdə N.Bədəlov adı xüsusi xətlə keçir.

Onun filmoqrafiyasına nəzər salsaq, sənədli kinomuzda bu sahədə ali təhsil alan ilklərdən olduğu bariz görünür. Amma həmin dönəmdə müxtəlif səbəblər, bəlkə də intriqalar (bəziləri kimi) onun da əl-qolunu yığıb. Beləcə, yüksək kino təhsili almış insan ömrünün sonrakı illərində bölgələrdə dram dərnəkləri yaradıb, orada həvəskar aktyorları ətrafına toplayıb. Kinoda başlanan parlaq yol Salyanda Xalq teatrında bitməyə məhkum edilib.

Amma 88 ömür sürən sənətkar sonadək kino ilə yaşayıb, respublikada sənədli kinonun təşəkkülündə müstəsna rol oynayıb.

*davamı səh. 5-də*

## "Türklük, türkçülük və türkologiya" – AMEA-da məruzə

AMEA Rəyasət Heyətinin iyulun 11-də keçirilən iclasında Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərovun "Azərbaycanda türklük, türkçülük və türkologiya" mövzusunda məruzəsi müzakirə olunub.

Məruzədən öncə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli son illərdə dövlətimizin başçısı İlham Əliyevin liderliyində Azərbaycanın Türk dünyasının mərkəzində yer aldığını vurğulayıb. Bildirib ki, Şuşada (6 iyul) keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü və Qarabağ Bəyannaməsinin imzalanması bunu bir daha nümayiş etdirdi.

AMEA rəhbəri diqqətə çatdırıb ki, 1926-cı ildə Türk dünyasını ilk dəfə birləşdirən Birinci Türkoloji Qurultay Bakıda keçirilib və Azərbaycan tarixən olduğu kimi, bu gün də dünya türkologiyasının mərkəzi sayılır. Türk dünyası ilə bağlı önəmli tədqiqatlar aparılır, AMEA-nın elmi müəssisə və təşkilatlarında bu istiqamətdə şöbələr fəaliyyət göstərir və Türk dünyasının elmi qurumları ilə əlaqələr genişləndirilir.

Qeyd olunub ki, AMEA Rəyasət Heyətinin iclasına təqdim olunan məruzə də Birinci Türkoloji Qurultayın 100 illiyinə hazırlıq işlərinin bir parçasıdır.

*davamı səh. 2-də*

İçərişəhər rəssamlarının gözü ilə



*səh. 3*



Bölgələrdə mədəni həyat

*səh. 4*



"Nəsildən-nəslə teatr" layihəsində ilk görüş

*səh. 5*

# 2025-ci ildə Azərbaycanda III MDB Oyunları keçiriləcək

## Təşkilat Komitəsi yaradılıb

III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb. Prezident İlham Əliyev iyulun 10-da bununla bağlı sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş" iştirakçılarının Bədən Tərbiyəsi və İdman Şurasının 2021-ci il 20 dekabr tarixli növbədənkənar iclasında III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilib.

Azərbaycanın MDB Oyunları kimi əhəmiyyətli bir idman tədbirinə ev sahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm layihələrin respublikamızda yüksək səviyyədə təşkil edilməsinə müsbət təsir göstərəcək.

Azərbaycanda III MDB Oyunları 2025-ci ilin oktyabr ayında keçiriləcək.

Bununla bağlı yaradılan Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının gənclər və idman naziridir. Nazirlik və digər dövlət qurumlarının, bir sıra şəhər-rayon icra hakimiyyətlərinin rəhbər və məsul şəxsləri Təşkilat Komitəsinin üzvləridir. Mədəniyyət Nazirliyi də komitədə təmsil olunur.

Qeyd edək ki, MDB Oyunları ideyası Rusiya tərəfindən irəli sürülüb və ilk dəfə 2021-ci ildə Kazan şəhərində (Tatarıstan) keçirilib. 2023-cü ildə II MDB Oyunları Belarusun paytaxtı Minsk qəbul edib. MDB Oyunlarının iki ildən bir keçirilməsi nəzərdə tutulur.

2025-ci ildə, həmçinin Azərbaycanın Gəncə şəhəri "MDB-nin idman paytaxtı" missiyasını daşıyacaq.

# TÜRKSOY 31 yaşında

əvvəli səh. 1-də

TÜRKSOY yarandığı gündən qardaş xalqların ortaq mədəniyyət çətiri altında söz və sənət dəyərlərimizi bir araya gətirərək təbliğ edir. Təşkilatın fəaliyyəti hər il toplantıları keçirilən Mədəniyyət Nazirləri Daimi Şurası tərəfindən müəyyən olunur. Qurumun cari fəaliyyətinə baş katib rəhbərlik edir.

Azərbaycan Respublikasının Rusiyadakı səfiri, keçmiş mədəniyyət naziri Xalq artisti Polad Bülbüloğlu 1993–2006-cı illərdə TÜRKSOY-un ilk baş katibi olub. Ondan sonra təşkilata Qazaxıstanın keçmiş mədəniyyət naziri, musiqi xadimi Düsen Kaseinov rəhbərlik edib. 2022-ci ildən Qırğızıstanın keçmiş mədəniyyət naziri Xalq yazıçısı Sultan Raev TÜRKSOY-un baş katibidir.

Azərbaycan təşkilatın fəaliyyətində yaxından iştirak edir. TÜRKSOY ölkəmizlə bağlı çoxsaylı birgə layihələr həyata keçirib. O cümlədən "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi iki dəfə ölkəmizdə reallaşıb. 2016-cı ildə bu adı Şəki şəhəri daşıyıb. 2023-cü ildə isə Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" olub.

# "Ötən illərin nəğmələri"

## Tanınmış ifaçıların iştirakı ilə musiqi axşamı keçirilib



İyulun 10-da Heydər Əliyev Sarayında "Ötən illərin nəğmələri" adlı konsert proqramı təqdim olunub.

Konsertdə Xalq artistləri Zaur Rzayev, Gülyaz Məmmədova, Cavan Zeynallı, Əməkdar artistlər Elton Hüseynəliyev, Şölə Səfərəliyeva, Rəşad İlyasov, Xəyyam Mustafazadə, tanınmış ifaçılar Fuad Musayev, Rəvanə Qurbanova və digər sevilən estrada müğənniləri səhnəyə çıxıb.

Gecədə unudulmaz bəstəkarlar Tofiq Quliyev, Emin Sabitoğlu, Elza İbrahimovanın musiqiləri ilə bərabər, korifey ifaçılar Müslüm Maqomayev, Mirzə Babayev və Şövkət Məmmədovanın repertuarından mahnılar ifa olunub.

Azərbaycan Televiziyasının informasiya dəstəyi verdiyi konsert proqramı alqışlarla qarşılanıb.

**L.Azəri**

# Xalça Muzeyinin qonaqları

*Monteneqronun Azərbaycandakı səfiri Perişa Kastratoviç Milli Xalça Muzeyini ziyarət edib.*

Diplomata muzeyin ekspozisiyasında yer alan nadir sənət nümunələri haqqında məlumat verilib. Bildirilib ki, xalça sənətinin inkişafı Azərbaycan dövlətinin daim diqqət mərkəzində olub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü və səyləri ilə 2010-cu ildə milli xalçaçılıq sənətimiz UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

Səfir muzeydə xalçatoxuma prosesini də izləyib.

Qeyd edək ki, bir qədər əvvəl Milli Xalça Muzeyində Monteneqro xalqının ənənəvi mədəniyyətini təcəssüm etdirən "Müxtəlifliyin gözəlliyi" adlı sərgi də açılıb.

***



İyulun 10-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyi Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin ("Qocalar evi") sakinləri Milli Xalça Muzeyini ziyarət ediblər.

Qonaqlara muzeyin kolleksiyaları, burada nümayiş etdirilən sənət əsərləri haqqında məlumat verilib. Onlar xalçanın toxunma prosesi ilə yaxından tanış olub, özləri hana başına keçərək bir neçə ilmə vurublar.

Sonra "Şuşa, zəfərin mübarək!" adlı kölgə teatr tamaşası göstərilib.

**Lalə**

# Azərbaycan və Pakistan arasında mədəni mübadilə proqramı imzalanıb

## Prezident İlham Əliyevin qardaş ölkəyə dövlət səfəri əlaqələrin bütün sahələrinə təkan olacaq

əvvəli səh. 1-də

Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Prezident İlham Əliyevin və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.

Mübadilə olunan sənədlər:

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında tranzit ticarət haqqında Saziş"

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında preferensial ticarət Sazişi"

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiyalar və Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli İrs və Mədəniyyət İdarəsi arasında 2024–2029-cu illər üzrə mədəni mübadilə Proqramı"

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"



"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Pakistan İslam Respublikasının "Pakistan Televiziya Korporasiyası" MMC arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş"

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"

"Bakı şəhəri (Azərbaycan Respublikası) ilə İslamabad şəhəri (Pakistan İslam Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Anlaşma Memorandumu"

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Pakistan İslam Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsi arasında Anlaşma Memorandumu"

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında Anlaşma Memorandumu".

***

Prezident İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatlarla çıxış ediblər.

***

İyulun 11-də İslamabadda Baş nazir Məhəmməd Şahbaz Şərifin adından Prezident İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

# İtalyan arxeoloqların "Tava-təpə" tapıntısı

## 3500 il yaşı olan ayin masası

əvvəli səh. 1-də

Dairəvi sahənin xarici hissəsində müxtəlif heyvan – iribuynuzlu mal-qara, qoyun və donuz sümükləri, həmçinin saxsı qab qırıqları aşkar edilib. Arxeoloqların fikrincə, bu tapıntılar "Tava-təpə"də köçəri tayfaların ümumi süfrəsinin bir hissəsi olan ayin yeməkləri haqqında yeni fikirlər verir.

Quruluşun ayin xarakterini xüsusi çuxurlara yerləşdirilmiş və tanrılara təqdim etmək üçün nəzərdə tutulmuş nəzir deyən insan heykəlcikləri də göstərir.

Arxeoloqlar iyulun ortalarında "Tava-təpə"də tapılan artefaktları təqdim etməyi planlaşdırırlar. "Heritage Daily" yazır ki, Siciliyadakı Kataniya Universitetinin bu ilin dekabrında qazıntıların nəticələrinə dair sərgi təşkil edəcəyi də gözlənilir.

Qeyd edək ki, "Tava-təpə" qədim yaşayış məskəni eramızdan əvvəl XIII–VII əsrlərə aid Son Tunc və Erkən Dəmir dövrünə aid Xocalı-Gədəbəy mədəniyyətinə məxsusdur. Arxeoloqlar keramik qabları ötən ilin yayında Ağstafa rayonunun Aşağı Kəsəmən kəndi yaxınlığında aşkar ediblər. Qədim yaşayış məskəninin yerində qazıntı işləri üç ildir ki, azərbaycanlı mütəxəssislər tərəfindən Türkiyə və İtaliyadan olan arxeoloqlarla birgə aparılır.



# "Türklük, türkçülük və türkologiya" – AMEA-da məruzə

əvvəli səh. 1-də

Daha sonra akademik Nizami Cəfərov "Azərbaycanda türklük, türkçülük və türkologiya" mövzusunda məruzə ilə çıxış edib. Akademik qeyd edib ki, XX əsrin əvvəllərindən etibarən Azərbaycanda türkçülük məfkurəsi sistemli bir şəkil almağa başlayıb və Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və digər türkçülərin səyləri nəticəsində inkişaf edərək günümüzə qədər gəlib çatıb. Türk xalqlarının geniş inteqrasiyası ilə səciyyələnən müasir mərhələdə ümumtürk mədəniyyəti və genezisinin öyrənilməsinə böyük zərurət var.

"Türkologiyanın Azərbaycandakı vəziyyətini anlamaq üçün, ilk növbədə, türklük anlayışını təsəvvür etmək lazımdır. Azərbaycanda türklük ondan ibarətdir ki, biz dildə, ədəbiyyatda, mədəniyyətdə, tarixdə coğrafiya ilə etnosun münasibətlərini dəqiq aydınlaşdıra bilək. Azərbaycanın coğrafi sərhədləri Səfəvilər dövründən artıq müəyyənləşməyə başladı. Bu gün azərbaycanlı adlanan etnos milləti yaratmaq mənasında həmin coğrafiyanın hüdudlarından kənara çıxmayıb. Bəs, bu etnos bu coğrafiyaya hansı tarixi dövrdən bağlanır? Ən sadə izahı odur ki, dünya yaranandan. Bizim üçün əsaslandırılmış, ənənəvi türklük "Kitabi - Dədə Qorqud" eposudur. Azərbaycanda türklük xalqın etnososiokulturoloji əsası olaraq kökləri "Kitabi - Dədə Qorqud" eposundan alır...", – deyə Nizami Cəfərov bildirib.



Azərbaycanda türkçülüyün uzun müddət daxildən və xaricdən böyük müdaxilələrə məruz qaldığını deyən alim türkologiyanın elm kimi Avropada, türkləri öyrənmək üçün formalaşdığını, Azərbaycanda isə türkologiyanın əsasını Bəkir Çobanzadənin qoyduğunu söyləyib.

Alim məruzəsində, həmçinin Azərbaycan dilçiliyi, ədəbiyyatşünaslığı, mədəniyyətşünaslığı, tarixşünaslığında azərbaycançılıq, türklük, müasirlik (ümumbəşərilik) parametrləri, daha az diferensiasiya, daha çox inteqrasiya formulu və digər məqamlara toxunub.

Mövzu ətrafında akademik Gövhər Baxşəliyeva, tarix elmləri doktoru Zemfira Hacıyeva, professor İsmayıl Kazımov, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# Tarixi Zəfərə doğru qəhrəmanlıq cəngi

## Tovuz döyüşlərinin dördüncü ildönümü

əvvəli səh. 1-də

İyulun 14-də Ermənistan silahlı birləşmələri Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoyub. Həmin vaxt müdafiənin ön xəttində olan Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz şəhid olub. Bu, Azərbaycan Ordusunun yüksəkrütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirmənin dünyaya nümayiş etdirib.

Azərbaycan Ordusu şəhidlərimizin qisasını alıb, düşmənin atəş mövqeyindəki artilleriya qurğusu döyüş heyəti ilə birlikdə yerlə yeksan edilib. Bir gün sonra görülən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası və daha bir bölüyün dayaq məntəqəsi məhv edilib.

Tovuz döyüşlərinin mühüm əhəmiyyəti xalqımızın Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə qarşı qəhrəmancasına döyüşən Ordumuzla milli həmrəylik nümayiş etdirməsi idi. İyulun 15-nə keçən gecə on minlərlə gənc paytaxtda yürüş edərək Azərbaycan Ordusuna dəstəyini göstərib.

Nazirlər Kabinetinin iyulun 15-də keçirilmiş iclasında Prezident İlham Əliyevin "Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram" çağırışına səs verən minlərlə vətəndaşımız könüllü şəkildə orduda xidmət etmək barədə arzularını bildirib və müvafiq qaydada qeydiyyata alınıblar.

İyulun 16-da səhər mövqelərimizə yenidən hücum etməyə cəhd göstərən düşmən cavab atəşi ilə susdurulub.

Tovuz döyüşləri zamanı Silahlı Qüvvələrimizin 12 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb, 1 mülki şəxs həlak olub. Xalq öz mərd, vətənsevər oğullarını böyük izdihamla son mənzilə yola salıb.

2020-ci ilin iyulunda baş vermiş döyüşlər Azərbaycanın döyüş meydanında Ermənistana necə ağır zərbə vura biləcəyini göstərib. Döyüşlərdə düşmənin yüzdən çox hərbçisi məhv edilib, onlarla döyüş texnikası sıradan çıxarılıb.

Bu döyüşlərdən təxminən iki ay sonra düşmənin növbəti təxribatının qarşısını almaq üçün genişmiqyaslı əks-həmlə əməliyyatına başlayan qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistanı diz üstə qoyaraq torpaqlarımızı işğaldan azad edib.

2023-cü ilin 19-20 sentyabrında isə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam və qəti bərpası naminə Zəfər salnaməsinin son cəngi oldu. Azərbaycan ərazisində kök salmış separatçı hərbi-kriminal rejimin kökü birdəfəlik kəsildi.

# Qrant müsabiqəsi ilə bağlı infosessiya keçirilib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi qeyri-hökumət təşkilatları üçün mədəni və yaradıcı sənayelərin təşviqi üzrə qrant müsabiqəsi elan edib. Müsabiqə mədəniyyət və yaradıcı sənayelərin inkişafı, mədəniyyət sahəsində rəqəmsal həllər, yerli animasiyanın dəstəklənməsi və kino sənayesində institusional islahatlar kimi prioritet istiqamətləri əhatə edir.



İyulun 10-da qrant müsabiqəsi ilə bağlı açıq infosessiya təşkil edilib.

Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzində keçirilən tədbirdə müsabiqə ilə maraqlanan qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov müsabiqədə iştirak şərtləri, prioritet istiqamətlər və altmövzular barədə danışıb. O, həmçinin layihə təklifi ilə bağlı qoyulan tələblərdən söhbət açıb.

Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər planında mədəni və yaradıcı sənayelərə də mühüm yer ayrıldığını deyən R.Əzizov bildirib ki, müsabiqə də bu tədbirlər çərçivəsində keçirilir və məqsəd yaradıcı sənayelərin inkişafıdır.

Qeyd olunub ki, Strategiyada da göstərildiyi kimi, yeni biznes subyektlərinin yaranması və hər il bu istiqamətdə 5 faiz artımın olması vacib hədəfdir. İxrac sahəsi inkişaf etdirilməli və yaradıcı sənaye məhsullarının sayı artırılmalıdır.

"Layihə tərkibində müxtəlif mövzuları bir arada birləşdirmək mümkündür. Qrant müsabiqəsinin prioritet istiqamətləri sırasında mədəniyyət və yaradıcı sənayelərin inkişafı, mədəniyyət sahəsində rəqəmsal həllər, yerli animasiyanın dəstəklənməsi, kino sənayesinin institusionallaşdırılmasına dair layihələr yer alır", – deyə şöbə müdiri bildirib.

Diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyindən əvvəllər qrant alan, lakin qrant müqaviləsinin yekunlaşmasına baxmayaraq müqavilə üzrə öhdəliklərini yerinə yetirməyən qeyri-hökumət təşkilatları müsabiqədə iştirak edə bilməz. Qeyri-hökumət təşkilatları üçün mədəni və yaradıcı sənayelərin təşviqi üzrə qrant müsabiqəsinə son müraciət tarixi 1 avqustdur. Sənədlərin qəbulu grants.culture.az internet resursu üzərindən elektron formada reallaşır.

Tədbir sual-cavab formatında davam edib.

# Qazaxıstanlı alimlər Azərbaycana niyə gəliblər?

## Alaş dövrü ədəbiyyatı ilə bağlı tədqiqat aparırlar

Astanadakı Lev Qumilyov adına Avrasiya Milli Universiteti Qazax ədəbiyyatı kafedrasının müdiri, Qazaxıstan Ali Təhsil və Elm Nazirliyi tərəfindən maliyyələşdirilən elmi qrant layihəsinin rəhbəri Kayırbek Kemenqerov həmkarları ilə birlikdə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində olub.



Muzeydən bildirilib ki, qazaxıstanlı qonaqlar "Alaş dövrü ədəbiyyatı: inteqrativ folklorşünaslıq konteksti və yeni elmi paradiqma" adlı qrant layihəsi çərçivəsində elmi fəaliyyətləri ilə bağlı Azərbaycana gəliblər.

Əvvəlcə onlar muzeyin direktoru akademik Rafael Hüseynovla görüşüblər. Bildirilib ki, XX əsrin əvvəllərində Qazaxıstanda milli hərəkatın liderləri tərəfindən Alaş Orda dövləti (1917–1920-ci illər) qurulub. Kayırbek Kemenqerin ulu babası Koşke Kemenqerov Alaş hərəkatının liderlərindən olub.

Kayırbek Kemenqer qazax dilində nəşr olunmuş, Alaş dövrü ədəbiyyatını əks etdirən məqalələrdən ibarət "Əlixan Ələmi" kitabını və digər nəşrləri muzeyə təqdim edib. Akademik Rafael Hüseynov isə rus dilində nəşr olunmuş Azərbaycan ədəbiyyatının klassiklərindən bəhs edən "Sözün meracı", "Məhsəti Gəncəvi. Portret-oçerk" kitablarını və muzeyin ekspozisiyasını əks etdirən bukleti qonaqlara hədiyyə edib.

Daha sonra qonaqlar muzeyin ekspozisiyası ilə tanış olublar.

Görüşdə Azərbaycanın Əməkdar rəssamı, pedaqoq, Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin nəvəsi, Qazaxıstanda (ailəsi sürgündə olarkən) dünyaya gəlmiş Rais Rəsulzadə də iştirak edib. O, Qazaxıstandakı uşaqlıq və gənclik illəri ilə bağlı xatirələrini danışıb.

# Meksika səfiri Ədəbiyyat Muzeyini ziyarət edib

Meksikanın Azərbaycandakı səfiri Mariya Viktoriya Romero Kabalyero Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət edib.

Muzeyin direktoru akademik Rafael Hüseynovla görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Rafael Hüseynov müəllifi olduğu "Məhsəti Gəncəvi. Portret-oçerk" kitabının ispan və ingilis dillərində nəşrlərini, "Şirvan şairləri" kitabını, eləcə də muzeyin bukletini qonaqlara hədiyyə edib.

Muzeydə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin təqdimatı qonaqlarda böyük maraq doğurub.

# İçərişəhər peşəkar və həvəskar rəssamların gözü ilə

## Müsabiqəyə yekun vurulub





İçərişəhər, onun tarixi və bu günü ilə bağlı elan edilmiş rəsm müsabiqəsi başa çatıb. Qədim məkanı peşəkar və həvəskar rəssamların gözü ilə göstərmək məqsədi daşıyan müsabiqəyə böyük maraq olub.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Azərbaycan Dövlət Rəssamlıq Akademiyası (ADRA) və Azərbaycan Rəssamlar İttifaqı ilə birgə təşkil etdiyi müsabiqənin qalibləri mükafatlandırılıb.

Bakı Fotoqrafiya Evində seçilən əsərlərdən ibarət sərgi də açılıb.

İdarənin rəhbəri Şahin Seyidzadə, VI çağırış Milli Məclisin deputatları Fazil Mustafa, Ülviyyə Həmzəyeva, ADRA-nın prorektorları, Xalq rəssamları Səlhab Məmmədov və Fuad Salayev çıxış ediblər.

Bildirilib ki, iki ay davam edən müsabiqəyə ölkə üzrə 300-dən çox iştirakçı rəsm əsərləri təqdim edib. Qaliblər Xalq rəssamları Natiq Əliyev, Fərhad Xəlilov, Səlhab Məmmədov, Aydın Rəcəbov və Əliyar Əlimirzəyev tərəfindən seçilib. Seçilən 40 əsərdən 7-sinin müəllifi qalib elan olunub.

İlk üç yeri müvafiq olaraq Fəxriyyə Əliyeva ("Şah sarayı"), Səidə Musayeva ("Qala izi") və Nəzrin Xələfova ("Bakıda küləkli gün") tutublar. Daha dörd nəfər (Ramil Məmmədov, Nəzrin Mütəllifli, Rəşad Rzayev, Samirə Vəliyeva) həvəsləndirici mükafata layiq görülüb.

Digər 33 əsərin müəllifləri isə müsabiqədə iştirakına görə diplomla təltif ediliblər.

Qeyd edək ki, müsabiqənin Bakı Fotoqrafiya Evindəki sərgisi avqustun 10-dək ziyarətçilərə açıq olacaq. Giriş sərbəstdir.

# Qarabağ və Zəngəzurun irsi arxeoloji və etnoqrafik tədqiqatlarda

## Beynəlxalq elmi konfrans keçiriləcək

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə oktyabrın 24-25-də "Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji və etnoqrafik tədqiqatlarda" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.

Konfrans tanınmış arxeoloq, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadənin (1934–2024) 90 illiyinə həsr olunub.

Konfransda Qarabağ və Zəngəzurun Daş və Paleometal dövrlərinin arxeoloji irsi, həmin ərazidə skif mədəniyyətinin izləri, alban mədəni irsi, İslam mədəni irsi, Qarabağ və Zəngəzurun qeyri-maddi mədəni irsi, Azərbaycanın arxeoloji irsinin tədqiqi, tədrisi və təbliğində professor Qüdrət İsmayılzadənin töhfələri, mədəni irsin nəzəri məsələləri istiqamətlərində məruzələr dinləniləcək.

Hibrid formatda təşkil ediləcək konfrans Azərbaycan, türk, rus və ingilis dillərində keçiriləcək. İştirakla bağlı məlumat və tezislər oktyabrın 1-dək conferencehistory@bsu.edu.az ünvanına göndərilməlidir.

Seçilmiş və müvafiq qaydada rəydən keçmiş məqalələr konfrans materiallarının toplusunda dərc olunacaq.

# Bakıda polşalı memara həsr olunan sərgi açılacaq

Milli Azərbaycan Tarixi Muzeyi və Polşanın ölkəmizdəki səfirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.



Muzeydən bildirilib ki, sənədi elmi işlər üzrə direktor müavini Fərhad Cabbarov və Polşanın ölkəmizdəki səfiri Rafal Poborski imzalayıblar.

Razılaşmaya əsasən, hər iki tərəfin əməkdaşlarının iştirakı ilə muzeydə tanınmış polşalı memar Yuzef Qoslavskinin vəfatının 120-ci ildönümünə həsr olunan sərgi təşkil ediləcək.

Sərgidə Yuzef Qoslavski tərəfindən vaxtilə Bakıda layihələndirilmiş məşhur binaların 3D formatında təqdimatı, polşalı memarın həyat və yaradıcılığına aid arxiv sənədləri (və ya onların surətləri), xüsusən də Bakıdakı fəaliyyət ilə bağlı mətn və vizual materiallar yer alacaq.

Sərginin təşkili ilə bağlı fikir mübadiləsindən sonra qonaqlar muzeyin yeni ekspozisiyası ilə də tanış olublar.

# Musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul imtahanlarının nəticələri elan olunub

Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə 2024–2025-ci tədris ili üçün qəbul imtahanlarının nəticələri elan olunub. İmtahanın nəticələri barədə namizədlərə "MyCulture" vahid şəxsi kabinet (my.culture.az) və elektron poçt vasitəsilə müvafiq bildirişlər göndərilib.

Bununla yanaşı, namizədlər vətəndaş məmnunluğunun və məlumatlandırma səviyyəsinin yüksəldilməsi məqsədilə alternativ kimi yaradılmış https://imtahan.culture.az resursuna daxil olaraq imtahan nəticəsi ilə bağlı məlumat əldə edə bilərlər.

Qeyd edək ki, 6-31 may tarixlərini əhatə edən elektron qeydiyyat mərhələsi zamanı musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul olmaq istəyən **16 280** nəfərin müraciəti "my.culture.az" vahid şəxsi kabinet vasitəsilə qeydə alınıb. Müraciət edənlərin **12 196** nəfəri, yəni 75 faizi bu imtahanlarda uğurlu nəticə əldə edərək musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul olunub. İmtahan nəticələrinə görə, ödənişsiz yerlərə qəbul olunanların sayı **9 428**, ödənişli yerləri qazananların sayı isə **2 768** olub.

Məlumat üçün bildirək ki, bu il məktəblərə qəbul olunan şagirdlərin sayı ötən illə (**10 215**) müqayisədə, **2 000** nəfərə yaxın daha çoxdur.

Uğurlu nəticə göstərmiş şagirdlər 15 avqust 2024-cü il tarixinə qədər elektron qəbul prosesini öz şəxsi kabinetləri vasitəsilə tamamlamalıdırlar. Bunun üçün istifadəçi "my.culture.az" vahid şəxsi kabinetinə daxil olub, "Təhsilalanların yerləşdirilməsi" bölməsindən zəruri məlumatları əlavə etməklə və tələb olunacağı təqdirdə təhsil haqqını müvafiq qaydada ödəməklə qəbul prosesini tamamlayır. İmtahan nəticələri ilə bağlı apellyasiya müraciətlərinə 15-17 iyul tarixlərində baxılacaq.

Onu da qeyd edək ki, mədəniyyət sahəsində islahat tədbirlərinin əsas məramı şəffaf və effektiv idarəetmə, rəqəmsal həllərin tətbiqi və vətəndaş məmnuniyyətinin təmin olunmasıdır. Musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul prosesi "e-Culture" rəqəmsal inkişaf strategiyası çərçivəsində icra olunur ki, bu da çevik və birbaşa kommunikasiya və şəffaflığın təmin olunmasında vacib əhəmiyyət daşıyır.

Şagirdləri və onların valideynlərini təbrik edir, uğurlu təhsil ili arzulayırıq!

# Postprodakşn mərhələsində olan 6 filmə dəstək veriləcək

Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) bu ilin may ayında postprodakşn mərhələsində olan film layihələrinin tamamlanma işlərinin dəstəklənməsi məqsədilə müsabiqə elan etmişdi.




Məqsəd ölkədə film istehsalının stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi, müstəqil prodüser mərkəzləri və müvafiq sahədə fəaliyyət göstərən digər şəxslər arasında rəqabət qabiliyyətinin artırılması və birgə film istehsalının dəstəklənməsidir.

Tammetrajlı bədii və sənədli, qısametrajlı bədii, sənədli və animasiya filmləri kateqoriyasında keçirilən müsabiqəyə ümumilikdə 9 layihə ilə bağlı müraciət edilib. Bədii şura tərəfindən dəyərləndirmə aparıldıqdan sonra 6 layihəyə dövlət dəstəyi verilməsi ilə bağlı qərar qəbul olunub:

**1.** "Yaddaş sarayları" qısametrajlı sənədli filmi, rejissor Mətləb Muxtarov ("Rental Azərbaycan" MMC);

**2.** "Geri dönüş" tammetrajlı sənədli filmi, rejissor Elməddin Alıyev ("Karvan Production" MMC);

**3.** "Səssiz zaman" tammetrajlı bədii filmi, rejissor Tahir Tahiroviç ("Nova Gorica Kino Mərkəzi" MMC);

**4.** "Qara pişik, ağ şanı" tammetrajlı sənədli filmi, rejissor Ələmdar Faiq ("Chinar Film" MMC);

**5.** "Tərsinə kölgələr" qısametrajlı bədii filmi, rejissor Hacı Səfərov ("Chinar Film" MMC);

**6.** "Sən haralısan, durna?" tammetrajlı bədii-sənədli filmi, rejissor İlkin Yusif ("Bumeranqfilm" MMC).

Qeyd edək ki, ölkəmizdə ilk dəfə postprodakşn mərhələsində olan film layihələrinə dəstək müsabiqəsi keçirilib. ARKA film layihələrinə dəstək məqsədilə bundan sonra da müsabiqələr təşkil edəcək.

# Teatr, kino və xoreoqrafiya – qabiliyyət imtahanları

Ali tədris ocaqlarına teatr, kino və xoreoqrafiya sənəti istiqaməti üzrə qəbul olmaq istəyənlər üçün qabiliyyət imtahanları davam edir.



Dövlət İmtahan Mərkəzindən bildirilib ki, aktyor sənəti və rejissorluq ixtisasları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində qabiliyyət imtahanları keçirilir. İyulun 11-dək ümumilikdə 881 abituriyent teatr, kino və xoreoqrafiya sənəti üzrə qabiliyyət imtahanlarında iştirak edib.

Aktyor sənəti ixtisası üzrə abituriyentlər aktyor sənəti, musiqi duyumu və ritmika üzrə qabiliyyətlərini nümayiş etdirirlər. Rejissorluq ixtisası üzrə isə abituriyentlər qabiliyyət imtahanında rejissor sənəti və aktyor ifaçılığı üzrə qiymətləndirilirlər.

İmtahan iştirakçılarının qiymətləndirilməsi "Abituriyent" jurnalının "Teatr, kino və xoreoqrafiya" sənəti adlı xüsusi buraxılışında dərc edilmiş meyarlar əsasında aparılır.

Qiymətləndirmədə tanınmış incəsənət xadimləri, aktyorlar və rejissorlar iştirak edirlər.

Teatr, kino və xoreoqrafiya sənəti istiqaməti üzrə ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisasları üçün qabiliyyət imtahanları isə iyulun 11-də paytaxtdakı 189-190 nömrəli tam orta məktəbdə davam edib.

# İmişlidə şəhid dostların adına xatirə bulağı

Bir məhəllədə boya-başa çatmışdılar, amalları, məqsədləri də bir idi. Söhbət 4 dostdan – Cavidan Məmmədli, Seymur Əzizullayev, Allahverdi Tağıyev və Tacəddin Abışovdan gedir. Qəlbləri Vətən eşqi ilə döyünən gənclər Vətənin dar günündə döyüşlərə yollanıb və qəhrəmancasına şəhadətə ucalıblar. Onların böyüyüb boya-başa çatdığı İmişli rayon mərkəzindəki məhəllədə xatirələrini əbədiləşdirən bulaq istifadəyə verilib.




Mərasimdə İmişli və digər şəhər və rayonlardan şəhid ailələri, idarə və müəssisələrin nümayəndələri iştirak ediblər. Bildirilib ki, şəhidlər Vətən uğrunda canlarını fəda etməklə gələcək nəsillərə əsl örnək olublar.

Məktəblilərin ifasında vətənpərvərlik ruhunda şeirlər səsləndirilib.

Qeyd edək ki, dörd dostdan üçü – Cavidan Məmmədli, Allahverdi Tağıyev və Tacəddin Abışov 44 günlük Vətən müharibəsində, Seymur Əzizullayev isə 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən antiterror əməliyyatı zamanı şəhid olub.

# Vətən Müharibəsi Qəhrəmanının xatirəsi anılıb

II Qarabağ müharibəsinin şəhid baş giziri, Xüsusi Təyinatlı Qüvvələrin qrup komandiri, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anadan olmasının 40 illiyi adını daşıdığı Neftçala şəhər Uşaq incəsənət məktəbində qeyd edilib.



Şəhidin həyat və döyüş yolunu əks etdirən videoçarx nümayiş olunub.

Hadrut qəsəbəsinin düşməndən azad olunmasında böyük şücaət göstərmiş C.İsmayılov haqqında məlumat verilib. Bildirilib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və Azərbaycan Ordusunun sarsılmaz gücü ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə xalqımıza əbədi qürur bəxş edib. 2023-cü ilin sentyabr ayında keçirilən birgünlük lokal antiterror əməliyyatları ilə ölkəmizin suverenliyinin tam bərpa edilməsindən və bu döyüşlər zamanı şəhid və qazilərimizin şücaətindən, işğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərindən və sakinlərimizin öz doğma torpaqlarına qayıdışından da bəhs olunub.

Tədbir C.İsmayılov adına Uşaq incəsənət məktəbi tərəfindən hazırlanan kompozisiyalarla davam edib.

# "Şirvanda kino günləri" layihəsi yekunlaşmaq üzrədir

Xəbər verdiyimiz kimi, Azərbaycan Kinematoqrafçılar İttifaqı və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə iyul ayının birinci yarısında "Şirvanda kino günləri" adlı layihə həyata keçirilir.



Kino günlərinin proqramına İlqar Nəcəfin "Suğra və oğulları", Elvin Mirzəyevin "Qul" tammetrajlı bədii filmləri, eləcə də Şirin Əhmədov, Qulu Əsgərov, Amil Amal, Pərviz Həsənov, İntiqam Hacılı və Orxan Əkbərlinin qısametrajlı bədii və sənədli filmləri daxildir.

Layihə üzrə iyulun 9-da Hacıqabul rayon Mədəniyyət Mərkəzində filmlər nümayiş etdirilib.

İyulun 10-da isə kinoseanslar Şirvan şəhər Folklor evində davam edib.

Nümayişlərdən sonra tamaşaçılar filmlər haqqında öz fikirlərini bölüşüblər.

"Şirvanda kino günləri" layihəsinin son ünvanı Salyan rayonu olacaq.

# 32 il əvvəl Xocalıda şəhid olan beş döyüşçü

Məlum olduğu kimi, Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası aidiyyəti qurumların mütəxəssislərinin iştirakı ilə Birinci Qarabağ müharibəsində həlak olanlarla bağlı iş aparır. Buraya həm müharibə zamanı naməlum şəhid kimi müxtəlif şəhər və rayonlarda dəfn olunanların kimliyinin müəyyən edilməsi, həm də işğaldan azad edilən ərazilərdə cəsədlərinin qalıqları tapılanlar aiddir.

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri dəqiqləşdirilmiş daha beş şəhidin cəsədlərinin qalıqları iyulun 11-də Xocalı şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.





Onların cəsədlərinin qalıqları Xocalı ərazisində aparılan tədqiqatlar nəticəsində aşkar edilib.

Xocalı faciəsi zamanı itkin düşmüş sayılan Məmişov Şahin Talış oğlu, Paşayev Ələddin Bəhlul oğlu, Qarayev Usubəli Süleyman oğlu, Şahmuradov Nemət Musa oğlu və Usubov Zakir Kamran oğlunun nəşinin qalıqları şəhid olduqları doğma yurdlarında torpağa tapşırılıb.

Onların nəşinin qalıqları Xocalı ərazisində aparılan tədqiqatlar nəticəsində aşkarlanıb.

Dəfn mərasimində şəhidlərin yaxınları, dövlət qurumlarının rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidlərin ruhuna dualar oxunub, məzarları üzərinə tər güllər düzülüb, əklil qoyulub.

***

İyulun 12-də şəxsiyyətləri dəqiqləşdirilmiş daha beş nəfərin cəsədlərinin qalıqları yaxınlarının iştirakı ilə dəfn olunacaq. İdris Osman oğlu Baxışov Quba rayonunun Qənidərə kəndində, Muğan Gəray oğlu Əliyev Füzuli rayonunun Çimən kəndində, İmaməddin Əliağa oğlu Əliyev Ağdaş rayonunun Pirəzə kəndində, Səfiyyə Müləzim qızı Rəhimova və Müsaddin Sədri oğlu Rəhimov Saatlı rayonunun Orta Muğan kəndində torpağa tapşırılacaq.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin (RMİ) ilin I yarısı üzrə hesabat iclası keçirilib. M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində keçirilən iclasda regional idarənin rəisi vəzifəsini icra edən Nargilə Qafarova, aparat işçiləri və idarənin tabeliyində fəaliyyət göstərən müəssisələrin rəhbərləri iştirak ediblər.

Hesabat dövründə görülmüş işlər, o cümlədən bu il ilk dəfə olaraq mərkəzləşdirilmiş şəkildə həyata keçirilmiş musiqi, incəsənət məktəb və mərkəzlərinə şagird qəbulu imtahanlarının uğurla başa çatdırıldığı diqqətə çatdırılıb. Müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, göstərilən mədəni xidmətlərin keyfiyyətinin yüksəldilməsinin vacibliyi bildirilib, tövsiyələr verilib.

***

Lənkəran Mərkəzi Kitabxanasında uşaq yazarı Əyyub Türkayla görüş keçirilib. Şair oxuculara yaradıcılığı haqqında geniş məlumat verib, kitablarından söz açıb. Şəhər 5 saylı körpələr evi-uşaq bağçasının "Nəvələr" qrupunun ifası maraqla qarşılanıb.

Astara rayon Heydər Əliyev Mərkəzində Birinci Qarabağ müharibəsi şəhidi Mahmud Əhmədov, Vətən müharibəsi şəhidləri Əli Feyziyev, Rəşad Eyvazov və gizir Baba Qasımovun doğum günlərinə həsr olunmuş "Şəhidlərimiz qəlbimizdə yaşayır!" mövzusunda tədbir keçirilib. Çıxış edənlər şəhidlərimizin döyüşlərdə göstərdiyi şücaətlərdən danışıblar. Qeyd olunub ki, belə Vətən oğullarının qanı və canı bahasına azad olunmuş ərazilərdə şanlı üçrəngli bayrağımız dalğalanır.



Masallı rayon Mərkəzi Kitabxanasında rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə birgə "Adət-ənənələrimiz bu gün" mövzusunda tədbir keçirilib. Çıxışlarda ölkəmizdə maddi-mədəni irsimizin qorunması, inkişafı və təbliği istiqamətində görülən işlərdən danışılıb. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən adət və ənənələrin millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynadığı söylənilib.

***



Siyəzən rayon Heydər Əliyev Mərkəzində Quba-Xaçmaz RGİİ-nin Siyəzən rayonu üzrə Gənclər və idman sektoru ilə birgə intellektual düşərgə təşkil olunub. Məqsəd gənclərin dünyagörüşünü və intellektual səviyyəsini artırmaq, onların gələcək yarışlara hazırlıq səviyyəsini artırmaq, eləcə də asudə vaxtlarını səmərəli təşkil etməkdir. İştirakçılar müxtəlif növ intellektual oyunlar oynayıblar. Düşərgədə 40-dan çox yeniyetmə və gənc iştirak edib.

**Hazırladı: N.Məmmədli**

# Füzuli poeziyasına səyahət



Qəbələ rayon Mədəniyyət Mərkəzində dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) anadan olmasının 530 illiyi ilə əlaqədar ədəbi-bədii gecə keçirilib.

"Məhəmməd Füzuli poeziyasına səyahət" adlı tədbir Cahangir Cahangirovun "Füzuli kantatası" ilə açıq elan olunub. Sonra Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında məlumat verilib.

Bildirilib ki, Füzuli yalnız öz doğma vətəni Azərbaycanda deyil, bütün Yaxın Şərqdə, Avropada və Rusiyada tədqiq edilib və şairin poetik vüsəti yüksək qiymətləndirilib.

Sonra Mədəniyyət Mərkəzinin Cığatelli kənd Mədəniyyət evinin nəzdində fəaliyyət göstərən "Gülbuta" folklor qrupunun ifasında Füzulinin qəzəlləri ifa olunub. Şairin qəzəlləri üstündə muğamlar səsləndirilib.

# "Bəşəri bəla"ya qarşı – maarifləndirici tədbir

Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupu və şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə narkomaniyaya qarşı mübarizə sahəsində işlərin təhlilinə dair tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları "Ampula" adlı qısametrajlı filmi izləyiblər.

Narkomaniyanın insanların həyat və sağlamlığına, mənəvi-əxlaqi dəyərlərə və sosial-iqtisadi inkişafa mənfi təsirləri, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması və digər məsələlər barədə ətraflı məlumat verilib, yeniyetmə və gəncləri maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

İşçi qrupu tərəfindən hazırlanmış metodik tövsiyələr kitabçası və digər əyani vəsaitlər iştirakçılara təqdim edilib.

# Qaçaq Kərəmin durbini, dağ kəlinin buynuzu...

## Hüseyn Arifin Ev-Muzeyində daha nələr qorunur?

Bu il XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən Xalq şairi Hüseyn Arifin (Hüseyn Camal oğlu Hüseynzadə; 1924–1992) anadan olmasının 100 illik yubileyidir.

Hüseyn Arif 1924-cü il iyunun 15-də Ağstafa rayonunun Yenigün kəndində anadan olub. 1992-ci il sentyabrın 14-də dünyasını dəyişib və doğulduğu kənddə dəfn edilib.

Mədəniyyət Nazirliyinin 5 fevral 1993-cü il tarixli əmrinə əsasən, şairin xatirəsini əbədiləşdirmək məqsədilə Ağstafa rayonunda onun yaşayıb-yaratdığı ev muzey kimi ədəbiyyatsevərlərin üzünə açılıb.

Hüseyn Arifin Ev-Muzeyi 2 otaq, 1 zal, 1 foyedən ibarətdir. Burada 2000-dən artıq eksponat var. Onların əsasını şairin ailəsinə və özünə məxsus məişət əşyaları, geyim nümunələri, şairin həyatının müxtəlif dövrlərini əks etdirən fotolar, sənətkarın sağlığında ona verilən hədiyyələr, çap olunan kitabları təşkil edir.

Muzeyin direktoru Rövşanə Mahmudova şairin ocağında maraqlı eksponatların olduğunu deyir. Bildirir ki, muzeyə gələn ziyarətçilərin diqqətini ən çox cəlb edən eksponatlardan biri Hüseyn Arifin ovladığı və sonra böyük peşmanlıq hissi yaşadığı, hətta haqqında şeir yazdığı dağ kəlinin buynuzudur.






H.Arif "Bir dağ kəli yaraladım zirvədə" adlı şeirində yazır:

*Bir dağ kəli yaraladım zirvədə,*
*Baş titrədi, ayaq əsdi, daş axdı.*
*Bir canlını candan saldı bir zədə,*
*İki gözdən iki damla yaş axdı.*

Bu hadisədən sonra şairin oğlu Arif çox gənc yaşında avtomobil qəzasında həyatını itirir. Şair bu qəzanı həmin hadisə ilə əlaqələndirir və şeiri belə bitirir:

*Birdən-birə elə çırpdı özünü,*
*Sağ buynuzu qopub qaldı qayada.*
*Ey Hüseyn, müxtəsər et sözünü,*
*Bu qan səni tutasıydı, tutdu da.*

Muzeydəki eksponatlardan biri – Qaçaq Kərəmin durbinin də maraqlı tarixçəsi var. Qaçaq Kərəmin bibisi Zal qızı Gülnazla H.Arifin babası Bala Hüseyn ailə qurublar. Bu durbin də H.Arifə babasından yadigar qalıb. Durbini muzeyə bu mədəniyyət ocağının ilk direktoru, Hüseyn Arifin həyat yoldaşı Məleykə Hüseynzadə hədiyyə edib.

Muzeyin direktoru başqa bir eksponat haqqında da məlumat verir: "Bir gün Hüseyn Arif Bayıl həbsxanasında məhbuslarla görüşür. Şairin görüşdüyü məhbuslardan biri rəssam olur və o, Hüseyn Arifin şeirlərini çox sevir. Həmin şəxs görüş zamanı çəkdiyi portreti şairə hədiyyə edir. Həmin portret bu gün bizim muzeyimizin eksponatları sırasındadır. Ümumiyyətlə, Hüseyn Arifin tarixi əşyalara böyük marağı olub. Gəzib gördüyü yerlərdə bu əşyalar ya şairə hədiyyə olunub, ya da özü əldə edib. Bunlara misal olaraq misgərlik nümunələri, saxsı qablar, qədim məişət əşyaları və s. göstərmək olar".

Bunlardan başqa, H.Arifin tut ağacından yonma obrazı, 20 Yanvar faciəsi zamanı Bakı küçələrindən öz əlləri ilə topladığı qəlpələr, çay kənarından əldə etdiyi və üzərində təbiət təsvirlərinin olduğu daşlar, şairin yazı masası, ömrünün son illərində istifadə etdiyi masaüstü şəxsi əşyaları, habelə, sazı, son əlyazması və s. ziyarətçilərin marağına səbəb olur.

Direktor söyləyir ki, şairin 100 illik yubileyi ilə bağlı muzeyin təşkilatçılığı ilə silsilə tədbirlər keçirilir. Muzey tərəfindən şairin 100 illiyi ilə bağlı tədbirlər planı hazırlanıb və Qazax-Tovuz Regional Mədəniyyət İdarəsi tərəfindən təsdiq edilib: "Hüseyn Arif hər şeydən öncə təbiət vurğunu olub. Şeirlərinin əksəriyyətində Azərbaycanın dilbər guşələrini böyük ustalıqla tərənnüm edib. Biz də bunu nəzərə alaraq şairin 100 illiyi ilə bağlı ilk olaraq ağacəkmə aksiyası həyata keçirdik. "Yaşıl həyat" başlığı altında keçirilən aksiya zamanı Ağstafa şəhər Hüseyn Arif adına Uşaq musiqi məktəbinin həyətində, rayonun Hüseyn Arif adına küçəsində və muzeyin həyətyanı sahəsində ümumilikdə 100 ədəd ağac əkildi".



Muzeylə yanaşı, Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi rayonların mədəniyyət müəssisələrində də şairin 100 illiyi ilə bağlı müxtəlif tədbirlər təşkil edilib. Hüseyn Arifin yubiley tədbirləri ilin sonuna kimi davam edəcək.

Direktor deyir ki, həftənin bütün günləri fəaliyyət göstərən muzeyi ən çox şagirdlər və müəllimlər ziyarət edirlər. Həmçinin ədəbiyyat fənnini tədris edən müəllimlər açıq dərslərini məhz muzeydə keçirlər.

**Nurəddin**

# Onun ödədiyi ağır bədəllər...

## Kinorejissor Niyazi Bədəlovun xatirə gecəsi

*əvvəli səh. 1-də*




İyulun 10-da Azərbaycan Dövlət Film Fondunda Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə Niyazi Bədəlovun (1909–1997) 115 illik yubileyi münasibətilə xatirə gecəsi keçirildi. Tədbir çərçivəsində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi də açılmışdı.

Əvvəlcə kinorejissor haqqında videoçarx nümayiş etdirildi.

Niyazi Mustafa oğlu Bədəlov Şəkidə anadan olub. 1927-ci ildə Şəkidəki "Yeni yol" kinoteatrında kinomexanik köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda rejissorluq ixtisası üzrə təhsil alıb (1931–1936). 1936-cı ildən "Azərbaycanfilm"də çalışıb. Bir müddət Bakı Teatr Texnikumunda kino texnikası fənnindən dərs deyib. Müharibə (1941-1945) illərində cəbhə bölgələrində çəkilişlər edib. Moskvadakı kinojurnallar üçün süjet çəkiblər. Rejissor həmçinin Sovet İttifaqının müxtəlif respublikalarında istehsal olunan bədii filmləri Azərbaycan dilinə dublyaj edib. Azərbaycanda həvəskar kino hərəkatının təşkilatçılarından biri olub.

Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev Azərbaycan sənədli kino salnaməsinin yaradılmasında Niyazi Bədəlovun böyük xidmətlərindən danışdı, fondun muzeyində ona məxsus nadir rejissor ssenarisinin qorunub saxlanıldığını qeyd etdi.

Bildirdi ki, istedadlı rejissorun fərqli, yenilikçi "sənətkar gözü" olub. Onun xronikalarda, sənədli filmlərdə, kinoportretlərdə belə bədiiliyə, kameranın mümkün imkanları ilə çoxqatlı keçidlərə yer verməsi zəngin zövqünün məhsulu idi.

Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə N.Bədəlov haqqında xatirələrini bölüşdü, sağlığında ondan atalıq qayğısı gördüyünü bildirdi. Qeyd etdi ki, N.Bədəlov ümumilikdə 40-a qədər sənədli film ("Övladlarım", "Xəzərin üzərindən körpü", "Azərbaycan aşıqları", "Onun adı Serafino idi" və s.), "Ordenli Azərbaycan", "Gənc nəsil", "İncəsənət", "İdman" və s. kinojurnallar üçün süjetlər çəkib. Azərbaycan kinosunda gənclik mövzusunda çəkilmiş ilk sənədli film olan "Komsomol nəsli" filmi onun müəllif kimi fərdi, maraqlı, zamana müvafiq estetik cizgiləri ön plana çıxarır. N.Bədəlovun maraqlı ekran işlərindən biri də "Azərbaycan aşıqları" – Aşıqların I Qurultayından bəhs edən sənədli filmdir.

O da diqqətə çatdırıldı ki, İkinci Dünya müharibəsi və ondan sonrakı dövr, müharibə qəhrəmanlarının portretləri rejissorun yaradıcılığında xüsusi yer tutur. O, müharibənin, arxa cəbhənin təsvir həllini özünəməxsus boyalarla əks etdirməyə çalışıb.

Filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy sənətkarın öz filmlərinə ürək qoyduğunun hər ekran işində hiss olunduğunu dedi.

Rejissorun ailə üzvləri adından tarix üzrə fəlsəfə doktoru Esmira Cavadova çıxış edərək, tədbirin təşkilinə görə Dövlət Film Fonduna təşəkkürünü bildirdi.

Tədbirin sonunda kinorejissor Niyazi Bədəlovun "Onun adı Serafino idi" və "Estafet" sənədli filmləri nümayiş olundu.

İstər müharibə qəhrəmanları haqqında olan bu iki filmdə, istərsə də digər filmlərində rejissor Azərbaycanın tarixini, xüsusən də xalqımızın İkinci Dünya müharibəsində iştirak etmiş övladlarının igidliyini sənədli kinonun imkanları daxilində bacarıqla tərənnüm edir.

Ümumiyyətlə, onun yaradıcılığında mövzu baxımından rəngarənglik diqqəti cəlb edir. O sanki hər mövzuda unikal bilgi sahibi olduğunu və kino sevgisini izhara tələsir. Məsələn, "Mirzə Fətəli Axundov", "Məhəmməd Füzuli", "Xalq şairi Səməd Vurğun" filmlərində biz həmin şəxsiyyətlərin yaradıcılıq xronikasını deyil, bədii-sənədli filmə xas olan incəlikləri, təsvir həllindəki ustalığı görürük.

Rejissor bu filmlərində az sözlə, yığcam montajla böyük, çoxqatlı fikirlər ifadə etməyə çalışır. Onun xüsusən mədəniyyət və sənət xadimləri ilə bağlı ekran işlərində kütləvi tamaşaçıya hesablanmış zəngin təsvirçilik geniş yer tutur.













***

Əvvəldə də dediyim kimi, Niyazi Bədəlov 1944-cü ildə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin sərəncamı ilə Salyan özfəaliyyət dram dərnəyi bazasında Xalq teatrı (bir müddət dövlət teatrı statusu olub) yaradıb. Uzun illər burada çalışıb, fürsət düşdükcə də kinoya qaçıb... və 1997-ci ildə vəfat edib.

Beləcə, bir kino sevdalı ömür bitib. Başqalarını kinoyaddaşa köçürən Niyazi müəllimin özünün xronikası yoxdur. Bircə 90-cı illər kinosu, onun vəziyyəti ilə bağlı son müsahibəsində dediyi fikirlərdən başqa...

**Həmidə Nizamiqızı**

# Qonaq Bəxtiyardırsa...



Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) "Nəsildən-nəslə teatr" layihəsinin icrasına başlayıb. İyulun 9-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə səhnəsində layihə üzrə ilk görüş keçirildi.

Layihənin "Öz teatrını yarat" adı ilə təqdim edilən ilk panelinin qonağı Xalq artisti Bəxtiyar Xanızadə idi.

Görüşdən əvvəl MEMİM-in direktor vəzifəsini icra edən Vüqar Hümbətov çıxış edərək layihənin Azərbaycan teatrının inkişafına dəstək göstərmək, müasir beynəlxalq tendensiyaların teatra tətbiqi, bu sahəyə marağın artırılması, eləcə də gənclərin cəlb edilməsi və nəsillər arasında təcrübə mübadiləsi məqsədi daşıdığını vurğuladı.

Sonra teatrşünas Dağlar Yusif panelin qonağını təqdim etdi.

Belə baxanda, Azərbaycan Dövlət Pantomima Teatrının yaradıcısı və bədii rəhbəri Bəxtiyar Xanızadəni kim tanımır ki? Amma yox. Bu görüş daha çox yaşca bizim pantomim teatrımızdan kiçik olan nəslə ünvanlanmışdı deyə, Bəxtiyar müəllimin teatr və həyat düşüncələri ilə təkrar tanışlığa ehtiyac var idi.

Bəxtiyar Xanızadə haqqında təqdimatı, qonağın söhbətinə, xanəndələr demişkən, "ayaq verdiyi" giriş sözünü zarafatla "çox elmi" adlandırıb sadə danışmağa üstünlük verdi. Yəni elə həmişəki tək, eynilə seyrək müsahibələrində olduğu kimi, teatrı necə görüb onun barəsində nələri düşündüyünü çox aydın və səlis ifadə etdi.

Bir saatdan artıq davam edən görüşdə Bəxtiyar Xanızadə özünü teatrda necə gördüyündən, öz teatrını necə gördüyündən çox səmimi söhbət etdi və ona huşyarlıqla qulaq kəsilən teatr həvəsli gənclərə bu sənətdə nələri gözləyəcəklərindən, nələrlə qarşılaşacaqlarından öz şəxsi nümunəsində danışdı.

***

…"Tələbə olanda bu teatrın səhnəsində kütləvi səhnələrə çıxırdım. Hər tamaşada çıxışa görə o vaxtın pulu ilə 3 rubl 50 qəpik pul verirdilər. Mənim də həmin məbləğə ehtiyacım var idi deyə, kütləvi səhnəyə çıxırdım. Amma görürdüm ki, artıq teatrda işləyən, ümumi desək, səhnədə nizə tutan məndən yaşda azca böyük olan gənc aktyorlar hər gün bu peşəni seçdiklərinə görə, teatrda işlədiklərinə görə lənət yağdırırlar. Mən bu teatrda elə onlara görə qalmaq istəmədim. Qorxdum ki, mən də onlar kimi olaram".

…"Pantomima teatrını mən özüm istədiyim üçün yaratdım. Bu, şəxsən mənim istəyim idi və mən çətinlikləri normal qarşıladım. Amma məndən sonra otuz ildə ikinci pantomim teatrı yaranmadı. Deməli, belə bir teatrı yaratmaq istəyən yoxmuş".



..."Hərdən bayağılaşmış sual verirlər ki, yenidən bu həyata gəlsəydin, yenə bu həyatı, bu sənəti seçərdin? Mənim ona cavabım belədir: bəli, seçərdim və 68 yaşıma qədər keçdiyim ömür yolunda heç nəyi dəyişməzdim. Mən həmişə teatrda uşaqlara deyirəm ki, mənə hər biriniz hər gün bir sual verin. Sual vermək o deməkdir ki, səni nəsə maraqlandırır, düşünürsən. Bir gün də sual verdilər ki, xoşbəxtlik nədir? Cavab verdim ki, xoşbəxtlik – bu günə qədər yaşadığın həyatda heç nəyi dəyişməmək hissidir".

"Qərib cinlər diyarında" filminə çəkilməyim uşaqlıq həvəsi idi. 1977-ci ildən ta 2000-ci ilədək ("Ovsunçu") heç bir filmə çəkilmədim. Kino mənlik deyil. Mən kamera qarşısına çıxanda tamaşaçını hiss etmirəm. Televiziya verilişlərinə də buna görə getmirəm: nə bilim, verilişə kim baxır? Baxın, burada əyləşmişik: bir-birimizi görürük, münasibəti hiss edirik. Canlı ünsiyyət ayrı aləmdir. Teatr da canlıdır...".

***

Adətən, bu cür tədbirlər bir qədər soyuq, bir qədər cansıxıcı ola bilir. Təbii ki, ortamın havası danışandan da, dinləyənlərdən də asılıdır. O gün Bəxtiyar Xanızadə açıq mətnlə kimsəyə "Öz teatrını yarat", hər şey yaxşı olacaq, demədi. Özünün də öz teatrını təsdiq uğrunda nələrdən keçdiyini, hansı stressləri yaşadığını xatırlamadı. Sadəcə, "Öz teatrını yarat"maq xəyalında olanlara "Öz teatrını yarat"mış şəxsin ürək sözlərini səxavətlə, səmimiyyətlə çatdırdı.

Bu görüşdən qəribə hisslərlə ayrıldıq. Bəlkə də kimsə içindəki teatr diləklərinin üstünə su səpdi, kimsə də əksinə, arzularını məqsədə çevirməyi qətiləşdirdi.

Bəxtiyar müəllim "Nəsildən-nəslə teatr" çərçivəsində ilk ünsiyyət müstəvisini elə qurdu ki, bu çərçivəni görkəmli rejissordan sonra doldurmaq hər halda çətin olar. Bunu gələcək göstərəcək. Hələliksə, biz bu görüşün xoş aurasındayıq. Əgər sözünü dinlədiyimiz Bəxtiyardırsa, dinləyənlər də bəxtiyar olacaq...

**Gülcahan Mirməmməd**

# "Elza və kuklalar" dueti



İyulun 9-da Azərbaycan Dövlət Kukla Teatrında Əməkdar artist, bəstəkar və ifaçı Elza Seyidcahanın 55 illiyinə həsr olunmuş "Elza və kuklalar" adlı tədbir keçirildi.

Tədbir teatrın foyesində bəstəkarın fortepianoda süitalarını ifası ilə başladı. Bu qısa performansda ona sənət dostları – kamera kvarteti və bacısı Rasimə də dəstək verdi.

Yubilyarla bağlı videoçarx nümayiş olundu. Kadrlarda uşaqlı-böyüklü hər kəsin "Ələkbər əmi" kimi tanıdığı Azərbaycan Dövlət Kukla Teatrının aktyoru və baş rejissoru olmuş mərhum Ələkbər Hüseynovu da görürük. O, yaradıcılığına, fərqli üslubuna önəm verdiyi E.Seyidcahanı televiziyada apardığı verilişlərə dəvət edib.

Yubiley gecəsində təbrik çıxışları da oldu. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı, Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artistlər Firuzə İbadova, Gülzar Qurbanova, Azərbaycan Dövlət Kukla Teatrının direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə, teatrın quruluşçu rejissoru Səidə Haqverdiyeva bəstəkarı təbrik etdilər.

İstər mahnı, istərsə də digər musiqi janrlarında ərsəyə gətirdiyi əsərlərin bəstəkarın yaradıcılıq zövqünün məhsulu olduğu vurğulandı.

Tədbir bəstəkarın bir növ səhnə adamlarının himninə çevrilən "Mən aktyoram" adlı kompozisiya ilə davam etdi. Dövlət Pantomima Teatrının aktyoru, Əməkdar artist Bəhruz Vaqifoğlu səhnə insanlarının ruh halının bu musiqi əsərində plastik izharını verdi.

E.Seyidcahanın bəstəkarı olduğu "Şəngülüm, Məngülüm" tamaşası da nümayiş olundu. 2017-ci ildən repertuarda olan tamaşaya teatrın baş rejissoru Anar Məmmədov quruluş verib. Tamaşadakı mahnıları isə teatrın aktrisası Ülviyyə Əliyeva oxuyur.

Alqışlarla qarşılanan tamaşadan sonra yubilyar səhnəyə çıxdı. "Oyuq" uşaq studiyası yetirmələri, Siyəzən rayon 1 saylı orta məktəbin şagirdi Mirhidayət Kazımov və nəvəsi Səmərruh ilə birgə populyar mahnılarını ifa etdi.

Sonda yubilyara teatrın rəssamları tərəfindən hazırlanmış öz kuklası hədiyyə olundu.

# "Onun yarısı" – Muzey Mərkəzində gənc rəssamların sərgisi

"ArtCoLab" Yaradıcı Gənclər Platformasının təşkilatçılığı, Mədəniyyət Nazirliyi və Muzey Mərkəzinin tərəfdaşlığı ilə gənc rəssamların "Onun yarısı" adlı qrup sərgisi keçirilib.

4-5 iyul tarixlərində Muzey Mərkəzində təşkil olunan sərgi "ArtCoLab"ın yaradılmasının 5 illiyinə həsr edilib. Sərgidə 26 gənc rəssam tərəfindən ərsəyə gətirilən 44 əsər nümayiş olunub. Müxtəlif mövzulu bədii nümunələrin əksəriyyəti kətan üzərində yağlı boya ilə işlənib.

Açılış mərasimində mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Xalq rəssamları Ömər Eldarov, Ağaəli İbrahimov, Sakit Məmmədov, Səlhab Məmmədov, "ArtCoLab" YGP-nin rəhbəri Çinarə Quliyeva, ictimai xadimlər və digər şəxslər iştirak ediblər.

"Davam" Gənclər Hərəkatı idarə heyətinin sədri Nihad Allahyarlı açılış nitqi söyləyib, sərgi haqqında məlumat verib.



Digər çıxış edənlər də sərginin əhəmiyyətini qeyd edib, əsərlərin ideya-bədii xüsusiyyətlərindən danışıblar.

Sonra gənc rəssamlar təltif ediliblər. Sonda qonaqlar sərgi ilə tanış olublar.

# ARKA tələbə filmlərinin çəkilişinə dəstək verəcək

Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən "Tədris-film" studiyası arasında müqavilə imzalanıb.

Müqaviləyə əsasən, ARKA tərəfindən 12 tələbə filminin istehsalı üçün 167 000 manat vəsait ayrılıb.

Müqavilə üzrə "İnam" (rejissor Mirzahid Ağayev), "Düşmüş mələk" (Elmar Fərzəli), "Tullantılar dünyası" (Araz Quliyev), "Balıqçı kafesində görüş" (Əhməd Əhmədov), "Fundament" (Mohammad Hossein Alipanahi), "Dəyişə bimeyən adam" (Fidan Babayeva), "Çağrılmamış qonaq" (Mirhafiz Həsənov), "Ulduzun hekayəsi" (Rauf Talıbov), "Şirin yuxu" (Şöhlət İbrahimova), "Biçilmiş don" (Xəyal Abbasov), "Mühafiz" (Rüstəm Sadıxov), "Sabah" (Lamiyə Həsənova) adlı bədii və sənədli film layihələrinin istehsalı həyata keçiriləcək.

Qeyd edək ki, bu ilin may ayında azərbaycanlı tələbələr Murad Şükürlünün "Bir vaxtlar Sabunçuda" və Mixail Abdulovun "Lent" filmləri ARKA-nın dəstəyi ilə Qazaxıstanda Fərabi Film Festivalında iştirak edərək mükafata layiq görülmüşdü. ARKA kino təhsili alan azərbaycanlı tələbələrin filmlərinin müxtəlif beynəlxalq festivallarda təmsil olunmasını onlar üçün stimul, məsuliyyət, istedadlarını nümayiş etdirmək üçün bir meydan hesab edir.

Gənclərdən ibarət "Alternativ Kino Akademiyası"nın yaradılması, dünya kino bazarına çıxış imkanlarının araşdırılması, bir sıra ölkələrlə bu sahədə memorandumların imzalanması, milli kinoya müasir dövrə uyğun yanaşma, Azərbaycan kinosunun dünyada, dünya kinosunun ölkəmizdə tanıdılması və təbliği istiqamətində layihələrin hazırlanması və digər məsələlər ARKA-nın fəaliyyətinin əsasını təşkil edir.

# "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı müsabiqəyə yekun vurulub

"Azərbaycan Dəmir Yolları" QSC (ADY) və Azərbaycan Mətbuat Şurasının "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı elan etdiyi media müsabiqəsinə yekun vurulub. İyulun 10-da qaliblərin mükafatlandırılması mərasimi olub.



Hazırda Azərbaycan Dəmiryol Muzeyinin yerləşdiyi tarixi Sabunçu vağzalında keçirilən tədbirdə ADY sədrinin müşaviri Aysel Soltanova çıxış edərək müsabiqənin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilməsinin əhəmiyyətini vurğulayıb. ADY rəsmisi media nümayəndələrini qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə təbrik edib, media ilə əməkdaşlığa xüsusi önəm verdiklərini vurğulayıb: "Müsabiqəyə təqdim olunan araşdırma materialları Azərbaycanın "yaşıl təşəbbüsləri"ni və gələcək planlarını nümayiş etdirir. Azərbaycan Dəmir Yolları olaraq daha dayanıqlı ətraf mühit üçün sizin araşdırmalarınızda qeyd olunan təşəbbüsləri dəstəkləyirik".

Mətbuat Şurasının sədri Rəşad Məcid jurnalistlərin analitik yazı, videoreportaj və məqalələrin hazırlanması üzrə bacarıqlarını əks etdirən müsabiqənin əhəmiyyətini vurğulayıb. Şuranın ADY ilə bu yöndə əməkdaşlığının əsasının ötən il qoyulduğunu diqqətə çatdıran R.Məcid həm dəmir yolu nəqliyyatı ilə bağlı fəaliyyətin ictimaiyyətə dolğun çatdırılması, həm də sahə ilə bağlı media peşəkarlığının artırılması baxımından belə müsabiqələrin davamlı olmasını arzu edib.

Münsiflər heyətinin üzvlərindən professor Qulu Məhərrəmli və MEDİA-nın Müşahidə Şurasının üzvü, ADA Universitetinin müəllimi Şəfəq Mehrəliyeva müsabiqəyə daxil olan yazılarla bağlı fikir və qeydlərini bölüşüblər.

Qeyd edək ki, müsabiqəyə 1 iyun – 1 iyul 2024-cü il tarixlərində kütləvi informasiya vasitələrindən (qəzet, jurnal, informasiya agentliyi, internet informasiya resursu, TV) dörd istiqamət üzrə 41 iş təqdim olunub. Müsabiqənin şərtlərinə əsasən, 12 nəfər əsas (hər istiqamət üzrə 1-ci, 2-ci, 3-cü yerlər), 15 nəfər həvəsləndirici mükafata layiq görülüb.

Mükafatçılar arasında "Mədəniyyət" qəzeti də təmsil olunur.

# Ədəbi proses necə gedir?

İyulun 10-da AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbi proses – 2023" mövzusunda elmi-yaradıcılıq müşavirəsi keçirilib.

AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli "Ədəbi proses" elmi-yaradıcılıq müşavirəsinin artıq ənənə halı aldığını söyləyib, AMEA ilə Azərbaycan Yazıçılar Birliyi (AYB) arasında əlaqələrin möhkəmləndirilməsi baxımından da tədbirin əhəmiyyətini qeyd edib. O, 2013-cü ildən başlanan "Ədəbi proses" müşavirələrini yazıçıların və tənqidçilərin məsuliyyətli hesabatı kimi dəyərləndirib, bu tədbirlərin ədəbiyyatımızın inkişafına, ədəbiyyatşünaslığımızın zənginləşməsinə xidmət etdiyini bildirib.



İsa Həbibbəyli vurğulayıb ki, 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi Zəfəri alqışlayan, tərənnüm edən ədəbiyyat sonrakı illərdə onun mahiyyətini, fəlsəfəsini, reallığını göstərməyə başlayıb.

Sonra AYB-nin katibi Səlim Babullaoğlu "Ədəbi proses" müşavirələrinin keçirilməsinin mənbə yaratmaq, baş verənləri sistemləşdirmək və hesabat xarakteri daşımaq baxımından əhəmiyyətini vurğulayıb. AYB-nin "Dünya ədəbiyyatı" dərgisi barədə məlumat verən Səlim Babullaoğlu nəşrdə Ədəbiyyat İnstitutu əməkdaşlarının məqalələrinin çap olunduğunu diqqətə çatdırıb.

Tədbirdə "İlin ədəbi mənzərəsi", "Poeziya", "Nəsr", "Dramaturgiya", "Ədəbi gənclik (gənc nəsillərin yaradıcılığı)", "Ədəbi tənqid", "Publisistika", "Uşaq ədəbiyyatı", "Cənubi Azərbaycan ədəbiyyatı", "Bölgələrdə ədəbi həyat" və "Bədii tərcümə" mövzularında məruzələr dinlənilib. Təqdim edilən məruzələr toplu halında nəşr olunacaq.

# Nargində əsir olmuş türk hərbçilərin taleyi filmə çevrilir

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən ötən il keçirilmiş film layihələri müsabiqəsinin qalib işlərinin çəkilişləri həyata keçirilir.

"Nargin" adlı tammetrajlı sənədli film layihəsi də müsabiqədə uğur qazanmışdı. ARKA-nın dəstəyi ilə bu layihənin də çəkilişlərinə başlanılıb.

Rejissor Elməddin Alıyev və Xəyyam Abdullazadənin filmi "Karvan production" tərəfindən istehsal olunur. Filmin ssenarisi X.Abdullazadəyə məxsusdur.

Filmdə hadisələr fotostudiyada başlayır. Fotoqraf Sona xanımın fotosunu çəkməyə hazırlaşır və bu vaxt küçədə səs-küy qalxır. Studiyanın geniş pəncərəsindən küçədəki izdiham görünür. Sona xanım fotonun çəkilməsini gözləmədən yerindən qalxıb küçəyə çıxır. Bunu gözləməyən fotoqraf aparatı işə salır və tüstü ətrafı bürüyür. Kompozisiyada isə boş kətil görünür. Sona xanım həyəcanla limana doğru aparılan türk əsirləri izləyir. Ac-susuz və yaralı əsirlərin halını görən izdihamla, yəni Bakı sakinləri ilə rus əsgərləri arasında gərginlik yaranır...

Filmin süjeti və qəhrəmanları real tarixi hadisələrə və şəxslərə əsaslanır. Birinci Dünya müharibəsi (1914–1918) zamanı Türkiyənin Sarıqamış rayonu ərazisində ruslara əsir düşən 10 min türk hərbçisi Xəzərdəki Nargin adasına yerləşdirilir. Onların bu adadakı faciəvi həyatı azərbaycanlıları narahat edir. Türk əsirləri Nargin adasından sistemli şəkildə qaçıranlardan biri də Sona Hacıyevadır. O, Bakıda yaşayan neft milyonçularından birinin həyat yoldaşı, həmçinin Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qadınlar bölümünün rəhbəri olub. Sona



xanım fədakarlıq göstərərək şəxsi vəsaiti hesabına əsirlərə tibbi ləvazimat və ərzaq yardımı göstərib, yüzlərlə əsirin, əsasən də yüksəkrütbəli zabitlərin xilas edilməsinə nail olub. Ən əsası isə onların adadan qaçırılması əməliyyatlarında şəxsən iştirak edib. Türk əsirləri Nargin düşərgəsindən xilas etdiyi üçün istintaqa cəlb olunub. İstintaq zamanı rus və erməni müstəntiqlər Sona xanımın şəxsi arxivini məhv ediblər...





X.Abdullazadə bildirib ki, çəkilişlər avqust ayında başlayacaq və Bakıda, Nargin adasında və Türkiyədə həyata keçiriləcək. Ekran işi gələn il tamaşaçı auditoriyasına təqdim olunacaq.

**Lalə**

# Rəqs və oyun havalarımızın mahir ifaçısı

Milli musiqi xəzinəmizi bənzərsiz ifaları ilə zənginləşdirən klarnet ifaçılarımızdan biri də Şəmsəddin İmanovdur. Tanınmış sənətkar çoxsaylı bəstəkar və xalq mahnıları, eləcə də bir sıra təsnif və muğamların mahir ifaçısı kimi sevilib. O həm də "Bəxtiyarı", "Şəbnəmi" və "Arifi" kimi rəqs əsərlərini ərsəyə gətirib.

Şəmsəddin (Şəmsi) İbad oğlu İmanov 2 iyul 1930-cu ildə Şuşa şəhərində dünyaya göz açıb. Uşaq ikən valideynləri Bakının Əmircan kəndinə köçür. Kəndin musiqi mühiti onda musiqiyə maraq yaradır. Kənd Mədəniyyət evində göstərilən teatr tamaşaları, konsertlər onun musiqi zövqünü oxşayır və sənət təxəyyülünü formalaşdırır. Klarnet ifaçısı Kərim Şərifovdan sənətin sirlərini öyrənir. 1950–1952-ci illərdə hərbi xidmətdə olan Şəmsəddin hərbi hissənin nəfəsli alətlər orkestrində çalışır, Zaqafqaziya ümumqoşun hərbi hissələrinin musiqi kollektivləri arasında keçirilən müsabiqə və festivallarda uğur qazanır.

Hərbi xidməti başa vurub Bakıya qayıtdıqdan sonra tanınmış klarnet ifaçılarından Suliddin İsmayılov, Nəsrulla Səmədov, Nadir Axundov, Bəhruz Zeynalovla tanış olur. Onların lent yazılarını dinləyərək təcrübəsini zənginləşdirir. İlk dəfə 1956-cı ildə radionun fondu üçün səs yazılışına dəvət alır. İfa etdiyi "Kolxoz rəqsi", "Xançobanı" oyun havaları bəyənilir və fonda daxil edilir.

Gündən-günə sənətdə püxtələşən Ş.İmanovun musiqi təhsili olmasa da, tanınmış sənətkarların ifaları onun üçün əsl məktəb olur. Məlahətli və oynaqlığı ilə seçilən ifaları qəlbləri oxşayır, müəllifinə şöhrət gətirir. O, 1957-ci ildə ikinci dəfə radioya dəvət olunur. "Bayatı-Şiraz" muğamı və "Vağzalı" havasının ifası ilə hər kəsi heyran edir. Radionun "qızıl fond"unda sənətkarın müxtəlif illərdə lentə alınan "Tiflisi", "Bakı", "Qazağı", "Tərəkəmə", "Dostluq", "Sülh" rəqsləri və digər oyun havaları, eləcə də özünün bəstələdiyi "Bəxtiyarı", "Şəbnəmi", "Mərdəkanı", "Sabirabadı", "Arifi" kimi rəqslər, bəstəkar və xalq mahnıları, "Çahargah", "Segah", "Bayatı-Şiraz" muğamları qorunub saxlanılır.

Ş.İmanov 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdində Ağası Məşədibəyovun rəhbərlik etdiyi "Azərbaycan təranələri" ansamblına solist-ifaçı kimi qəbul edilir. Dövrün ustad xanəndə-ifaçıları Seyid Şuşinski, Zülfi Adıgözəlov, Xan Şuşinski, Şövkət Ələkbərova, Rübabə Muradova, Aşıq Pənah, Aşıq Şakir, Əlibaba Məmmədov, Canəli Əkbərov, Tələt Qasımov və digərlərini konsert və qastrol səfərlərində uğurla müşayiət edir.

Araşdırmalarda bildirilir ki, görkəmli xanəndə-pedaqoq Seyid Şuşinski 1965-ci ildə son mənzilə yola salınarkən Ş.İmanovdan bir muğam parçası çalmağı xahiş edirlər. O, göz yaşları içində "Segah" muğamını ifa edir. Bundan bərk təsirlənən Xan Şuşinski yanıqlı avazla "Qarabağ şikəstəsi"ni oxuyur. 1973-cü ildə ümumittifaq "Melodiya" səsyazma studiyasında sənətkarın ifasında on iki musiqi nömrəsi vala köçürülür. Böyük tirajla SSRİ məkanında satışa çıxarılır. Əldən-ələ gəzən bu vallar ittifaqın sərhədlərini aşaraq bir çox ölkələrə yayılır. Bir sıra ərəb ölkələrinin mətbuatında onun mahir ifaçılığı yüksək dəyərləndirilir. Tanınmış sənətkarın ecazkar musiqisi təkcə el şənliklərində deyil, şəhərin park və xiyabanlarında da tez-tez səslənir.



1978-ci ildə Azərbaycan Konsert Birliyi yaradılarkən Ş.İmanovun çalışdığı "Azərbaycan təranələri" ansamblı da birliyin tabeliyinə verilir.

1987-ci ildə ifaçının səhhətində problemlər yaranır, əl barmaqları fəaliyyətindən qalır. Müalicə üçün Almaniyaya getmək lazım gəlir. Ancaq buna maddi imkan olmur... Həmin dövrdə tədqiqatçı alim Rafael Hüseynov sənətkarla görüşərkən ondan "Əgər bir daha imkan olsaydı, son dəfə hansı əsəri ifa edərdiniz", – deyə soruşur. O isə fikirləşmədən "Sabah gəlin köçəcək qız-gəlinlərimizə "Vağzalı" çalardım" cavabını verir.

Klarnet alətində milli musiqi nümunələrini böyük məharətlə səsləndirən, tamaşaçı və dinləyicilərə sənət zövqü yaşadan Şəmsəddin İmanov 3 iyul 1997-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

# "İrəvan xanlarının məktublar külliyyatı" çap olunub

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru Musa Quliyev uzun illərdir Kəngərlilər, Naxçıvanskilər və Şahtaxtinskilərlə bağlı bir çox faktları, tariximizin təhrifə məruz qalmış, yaxud yanlış bilinən həqiqətləri aşkara çıxarmağa çalışır. Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi Naxçıvanın tərəqqisində mühüm xidmətləri olmuş şəxsiyyətlərin öyrənilməsi, hazırlanan şəcərələri də onun imzasını daşıyır.

Alim bu günədək Tiflis, Sankt-Peterburq, Moskva, Vladiqafqaz, Odessa, Dərbənd, Bakı və Naxçıvan arxivlərində çoxsaylı arxiv sənədini aşkara çıxarıb, həmin sənədləri araşdıraraq elmi dövriyyəyə daxil edib.

Musa Quliyevin rus dilində yenicə işıq üzü görmüş "İrəvan xanlarının məktublar külliyyatı (XVIII əsrin sonları)" kitabı həmin məhsuldar fəaliyyətin davamıdır. Tədqiqatçı əsəri çapa hazırlamaqla bərabər, həm də kitaba yazılmış ön sözün (Azərbaycan və rus dillərində) və kitaba daxil edilmiş rus dilində əlavənin müəllifidir. Kitab akademik İsmayıl Hacıyevin və tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın rəyləri, AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı əsasında "Əcəmi" nəşriyyatında işıq üzü görüb.

336 səhifəlik kitab İrəvan xanlığının qonşu xanlıqlarla və Kartli-Kaxetiya çarlığı ilə apardığı diplomatik münasibətlərin təsvir edildiyi məktublardan bəhs edir. İrəvan xanlığının münşisi (sarayın katibi, tarixçisi – red.) olmuş Mirzə Məhəmməd Müslimin (Qüdsi) həmin məktublardan ibarət farsca külliyyatı rus qafqazşünası K.N.Smirnov tərəfindən rus dilinə tərcümə edilib. Həmin külliyyat Musa Quliyevin Gürcüstan Respublikasının Milli Əlyazmalar Mərkəzində qafqazşünas K.N.Smirnovun şəxsi fondunda apardığı axtarışlar nəticəsində əldə olunub.

Beləliklə, XVIII yüzillikdə İrəvan xanlarından Hüseynəli xana və onun oğulları Qulaməli xana, həmçinin Məhəmməd xana məxsus 268 məktubdan ibarət külliyyat və İrəvan xanlarının qonşu xanlıqlarla yazışmalarına aid 116 məktub da aşkarlanaraq Naxçıvana gətirilib. Həmin sənədlər İrəvan xanlığının tarixi, eləcə də qonşu xanlıqların və digər Azərbaycan xanlıqlarının tarixi ilə bağlı əsaslı və etibarlı mənbədir. Əldə olunan məktublar nəinki İrəvan xanlığının, həm də digər Azərbaycan xanlıqlarının Türkiyə (Osmanlı) ilə diplomatik əlaqələrinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (20)

Yay teatrlarda sənət mövsümünün tədricən yekunlaşdığı, qaynar yaradıcılıq axtarışlarının nisbətən səngidiyi, sənət adamlarının qarşıdakı mövsüm ərəfəsində müəyyən dincəlməyə ehtiyac duyduğu vaxtdır. Xüsusən, iyul ayından etibarən teatrlar pərdələrini bağlayır, truppalar ya qastrola, ya da eləcə istirahətə yollanır.

57 il əvvəl bu günlərdə də Rusiyanın Şimali Osetiya Muxtar Respublikasından teatr truppası Bakıya qastrola gəlmişdi. Özü də az qala repertuarındakı bütün tamaşalarla... Paytaxtda peşəkar teatrlardan geri qalmaq istəməyən həvəskar heyətlər, xalq teatrları da yaradıcılıq axtarışında idi, sıraları genişlənirdi...

Mətbuat xronikasından seçmələrimiz bu barədədir. Öncəki seçmələrdə olduğu kimi, yazılarda dövrün orfoqrafiyası da saxlanılıb...

### Tamaşaçıların alqışları

Orconikidze (indiki Vladiqafqaz – red.) şəhərinin respublika rus dram teatrı Bakıda öz qastrollarını başa çatdırmışdır. Şimali Osetiya artistləri respublikamızda olarkən Azərbaycan tamaşaçılarını səkkiz yeni əsərlə, o cümlədən A.Arbuzovun "Mənim yazıq Maratım" və V.Rozovun "Ənənəvi toplanış" pyeslərinin ilk tamaşaları ilə tanış etmişlər. Onlar 60-dan artıq tamaşa göstərmişlər. Bu tamaşalara 30 mindən artıq adam baxmışdır. Şimali Osetiya nümayəndələri respublikamızın neftçiləri, kimyaçıları, mədəniyyət və səhiyyə xadimləri ilə, döyüşçülərlə görüşmüşlər.

İyulun 16-da qonaqlar yekun tamaşası vermişlər. V.Rozovun "Ənənəvi toplanış" pyesi göstərilmişdir. Tamaşa başlanmazdan əvvəl bakılılar qonaqları səmimi salamlamışlar. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi Z.Z.Şükürova Bakı və Sumqayıt zəhmətkeşlərinə nümunəvi mədəni xidmət göstərdiklərinə görə teatrın respublika Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilməsi haqqında fərmanı oxumuşdur. Z.Şükürova yoldaş fərmanı təqdim edərkən qastrolların müvəffəqiyyətlə başa çatdırılması münasibəti ilə artistləri Azərbaycan KP MK, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və respublikanın Nazirlər Soveti adından səmimi təbrik etmişdir.

M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının direktoru, respublikanın əməkdar incəsənət xadimi Əliheydər Ələkbərov Şimali Osetiyanın nümayəndələrinə yeni yaradıcılıq müvəffəqiyyətləri arzulamışdır.

Orconikidze teatrının direktoru Y.S.Volodskaya cavab nitqində fərman üçün səmimi təşəkkür edib bildirmişdir ki, Şimali Osetiya artistləri Azərbaycanın tələbkar tamaşaçıları ilə görüşlər haqqında ən səmimi xatirələrlə gedirlər.

### Yeni xalq teatrı

M.Ə.Sabir adına Balaxanı mədəniyyət evinin Azərbaycan dram kollektivi qəsəbə zəhmətkeşlərinin böyük hörmətini qazanmışdır. 1908-ci ildə yaradılmış bu kollektivin repertuarına "O olmasın, bu olsun", "Aydın", "Solğun çiçəklər", "Bəxtsiz cavan" və digər əsərlər daxildir. Həvəskar artistlər tez-tez Bakının müxtəlif sənaye müəssisələrinin zəhmət-




keşləri qarşısında çıxış edir, onlara nümunəvi mədəni xidmət göstərirlər.

Bakı Şəhər Sovetinin İcraiyyə Komitəsi mədəniyyət evi dram kollektivinin bu gözəl və səmərəli fəaliyyətini nəzərə alaraq ona Xalq Teatrı fəxri adı vermişdir.

*"Kommunist" qəzeti, 18 iyul 1967-ci il*

# Doğrudan, "dərzi öz söküyünü tikmir?"

## Teatrda hər kəsi bəzəyənlə söhbət

### "Mən artıq əsəri oxuyandan və rol bölgüsünü görəndən beynimdə geyimləri ölçüb-biçirəm"

Üzərində "sex rəisi" sözləri yazılan qapını astaca döydüm. "Buyurun" kəlməsini eşidib içəri keçdim. Mənzərə gözlədiyim, daha dəqiqi, arzuladığım kimi idi. İşıqlı və böyük otaq. Geniş oval masa üzərində rəngbərəng parçalar, 2-3 cansız maneken, üzəri iynələnmiş, yəni tikiş prosesində olan paltarlar, parça rəfi, iri ütü, heç vaxt heç bir dərzidə görmədiyim qayçı (sonradan bəlli oldu ki, bizim iddialı dərzi xanım onu xüsusi sifarişlə Amerikadan gətirdib və ondan başqa heç kimdə yoxdur), tikiş maşını, metrə, üskük, saplar...

Həvəsləndim. "Arşın mal alan" deyib, rəngarəng parçalar içərisində bir avaz oxuyacaqdım ki, birdən yadıma düşdü ki, Akademik Musiqili Teatrda, yəni peşəkarlar arasındayam. Üstəlik, hər şeyi öz arşını ilə dəqiq ölçüb-biçən dərzi ilə üz-üzəyəm. Kiridim.

Söhbətə başlamazdan öncə "Dərzi öz söküyünü tikmir" atalar misalı yadıma düşdü. Amma qarşındakı xanımın sadə, səliqəli, dəbli geyimi bu misalı heç yaxına buraxmır. Zövq və dəb anlayışları arasında "Mənə yaraşan elə dəbdir" prinsipi ilə yaşadığı aydın sezilir.

***

Gəlin, onu yaxından tanıyaq. Nübar Hüseynova Akademik Musiqili Teatrın geyim sexinin rəisidir. 1999-cu ildən bu teatrda çalışır. Dəbə, modelyerlik peşəsinə, dərzilik sənətinə maraq onda ta uşaqlıdan yaranıb. Elə bu sevgi və maraqla da illərdir ki, bu işlə məşğul olur. Teatrın, demək olar ki, bütün səhnə geyim-kecimi onun əlindən çıxır.

– Uşaqlıqdan bu sahəyə həvəsim vardı. Deyim ki, teatrın dəlisi idim, məni cəlb elədi, gəldim, yox. Sadəcə, modaya, populyar olan bu sahəyə marağım vardı. İstəyirdim ki, tikdiyim paltarları hamı görsün. Həmin dövrdə Yüngül Sənaye İnstitutunda parça və geyim üzrə rəssam-modelyer ixtisasına yiyələndim. Bir müddət bu istiqamətdə başqa müəssisədə çalışdım. Sonra da, necə deyərlər, ömrümü teatra bağladım.

*– Teatrda çalışmaq ilk mərhələdə çətin olmadı ki?*

– Teatrda çalışacağımı deyəndə həyat yoldaşım olacaq insan yaxşı qarşılamadı. Dedi sən hara, teatr hara? Baxmayaq ki, təhsillidir, üstəlik sənətə bağlıdır. Amma ilk illərdə razılaşmırdı. Tikməyi sevirdim deyə çox da mane olmadı. Heç mən burada işə başlayanda indiki ştatlar da yox idi. Eləcə, biçici, dərzi və s. vardı. Teatrın əsaslı təmir-bərpasından sonra ştatlar da dəyişdi. Bir ildir ki, tikiş sexinin rəisiyəm. Amma heç bir fərqi yoxdur. Əsas odur ki, mən sevimli işimi görürəm.

*– İş prosesiniz necə olur, haradan başlayır?*

– Eskiz təqdim olunur. Sözsüz ki, bu mərhələ bizə qədər quruluşçu rəssam və rejissor arasında müzakirə olunur. Biz isə təqdim olunan eskiz əsasında işləyirik. Amma mən işimə fərqli prizmadan yanaşıram. Məsələn, səhnələşdiriləcək yeni əsərlə maraqlanır, tapıb oxuyuram. Obrazlar və onların xarakterlərini özüm üçün saf-çürük etməyə başlayıram. Yəqin ki, bu da modelyerliyimdən, rəssamlıq bacarığımdan irəli gəlir.

*– Bəzən rejissor, quruluşçu rəssam elə qəliz, texniki baxımdan elə müşkül iş istəyə bilər ki, bunu icra etmək mümkünsüz olsun?*

– Bəzən olur və elə əsas müzakirələrimiz də bu zaman başlayır. Peşəkarların müzakirəsi və mübahisəsi ümumi işə xidmət edir deyə daim müsbət nəticələnir. Bilirsiniz, teatrda işləyən hər kəs – dərzi və ya adi səhnə maşinisti – gərək ilk növbədə teatral olsun. Onu sevsin, az da olsa, hiss eləsin. Bu mənada, birgə işimiz hər zaman yaxşı olur.

*– Teatr dərzisinin nə kimi özəllikləri olmalıdır?*



– Baxın, bu gün şəhərimizdə kifayət qədər modern, bütün avadanlıqlarla və vəsaitlərlə təmin olunmuş atelyelər, moda evləri var. Amma onların heç birində teatr geyimləri tikən dərzilərin özəllikləri yoxdur. Mən sizi əmin edirəm ki, nə qədər gözəl tikiş tikənlər olsa da, bizimkilər onlardan mütləq fərqlənirlər.

*– Nübar xanım, parçanın rəngindən materialınadək seçim elə də asan olmur. Üstəlik, səhnənin işıq, fərqli rakurslardan aydınlanması məsələsi də var.*

– İndi mən deyənə gəldiniz (gülür). Parçanın işıq düşdüyü zaman verdiyi effektlə paltarın tikildiyi ifaçının bədən ölçülərinədək hər şeyi yüz ölçüb, bir biçirik. Səhnə başqa bir cazibədədir və bu zaman hər detal düşünülməlidir.

*– Görürəm, əlinizin altında "Əliqulu evlənir" tamaşasının eskizləri var...*

– Bəli, libretto müəllifi Xalq artisti İlham Namiq Kamal, quruluşçu rəssamı Nabat Səmədova, geyim üzrə rəssamı isə mənəm. Nabat xanımın çəkdiyi eskizlər əsasında geyimləri tikirik.

***

Bayaqdan bizə mane olmadan səssiz-səmirsiz çalışan xanımları söhbətə cəlb etmək üçün Nübar xanıma onlarla bağlı da suallar verirəm. Amma nə tikiş maşınında cınqırı belə çıxmadan işləyən dərzi, nə də buxarlı ütü ilə zərif parçaları sürətlə ütüləyib asan biçici bizə məhəl qoymur. Düzü, bir neçə məqamda gah buxarlı ütünün fısıltısı, gah da maşının tıqqıltısı ürəyimi üzdü. Hər dəfə elə bilirdim ki, ya xanımın maşının iynəsi sındı, ya da bayaqdan gözüm qalan mavi uzun don yandı...

Sözsüz ki, sərişteli qızlar nəyi necə etdiklərini yaxşı bildiklərindən Nübar xanım çox rahat söhbətini edir. Mənim ani nigarançılığıma dodaqaltı gülməyi də unutmur.

***

Bu məqamda əməkdaşları, onların işlərini xəbər alıram:

– Beş nəfər xanımıq. Hərə öz işini biləndə, çətinlik olmur. Üstəlik, çox mehriban dolanırıq. Yəqin bu da ondan irəli gəlir ki, ümumilikdə bizim teatrımızda mehribanlıq hökm sürür. Bəlkə də, məni buraya bağlayan elə bu amildir.

Müsahibimdən iş zamanı əlindən çıxan hansısa xəta və bununla bağlı ona olan münasibəti soruşuram:

– Özünü tərifləmək kimi olmasın, elə bir hal yaşanmayıb. Olanda da tez qızlarla düzəldirik. Biz cəld işləyirik. Deyilən vaxtdan 3-5 saat yox, 5-10 gün əvvəl hər şeyi tikib, hazır edirik. Bunu kollektivdə hamı təsdiqləyər.

*– Parçaları haradan alırsınız? Hamımızın bildiyi bazarlardan, yoxsa xaricdən sifariş verilir?*

– Bəzən sifarişlə də alırıq. Xüsusilə, aksesuarları. Məsələn, "Leyli və Məcnun" tamaşasının.

*– Hə, o tamaşanın ən yaddaqalan məqamı həm də geyim və aksesuarları idi.*

– Biz hər incə detala fikir veririk. Yəni parçanın qalınlığı, oyun zamanı aktrisanın əynində duruşu, templi səhnələrdə xüsusən qısa ətəklərin yarada biləcəyi maneələrin hamısını gözdən keçirdirik.

*– Amma bəzi tamaşalarınızda bunun əksi olan geyimlərə də rast gəlirik.*

– Siz gördüyünüzü biz də görür və tez bir zamanda aradan qaldırırıq. Məsələn, gözəl parça və ya ondan tikilən geyim tamaşanın sonrakı hissələrinə və ya mizana uyğun olaraq hər hansı elementin əlavəsindən sonra (deyək ki yağış yağanda və ya külək effekti veriləndə) görünüşünü dəyişib qeyri-estetik mənzərə də yarada bilir.

*– Fərqliliyi yaratmaq üçün seçim də çətin olur, yəqin.*

– O qədər... Bəzən bir parçanı neçə dəfədən sonra seçirik. Ona qalsa, dükan-bazar geyimlərlə doludur. Mən artıq əsəri oxuyandan və rol bölgüsünü görəndən beynimdə ölçüb-biçirəm. Xüsusən, qadınların boy, bədən ölçülərinə, hətta xarakterlərinə uyğun parçalar seçirəm. Sağ olsunlar, hər zaman da razılıq edirlər.



*– Aktrisaların səhnə geyimi ilə bağlı narazılıqları olurmu?*

– Artıq psixoloq olmuşuq (gülür). Gəlib parçaya, geyimə baxanda, əhvallarının dəyişdiyini hiss edirəm və çox sevinirəm. Aktrisa geyinir, başlayır obrazına girib replikalarını deməyə. Aha, deməli, bəyəndi. Mən illərdir məhz o andan ləzzət alıram və bütün yorğunluğum çıxır... Yəni eskiz var və biz ona əsaslanırıq. Bəzən rəssamdan icazə alaraq o geyimi geyəcək aktyorun, aktrisanın da istəklərini reallaşdırmağa çalışırıq.

*– Aktyorlarla işləmək çətindir, yoxsa aktrisalarla?*

(Gülür). Məncə, aktrisalarla. Kişi geyimləri o qədər də maraqlı olmur axı. Kostyumdur, uzağı bir az dəyişiklik edə bilirsən. Amma xanımlarda çox şey dəyişir – ayaqqabıdan baş aksesuarınadək. Onlarla iş daha maraqlı olur.

*– Ola bilməz ki, tikdiyiniz hər hansı geyimə vurulub onu sınaqdan keçirməyəsiniz. Yaxud da, birini də özünüzə tikməyəsiniz...*

– Olur, qadın deyiləm? (gülür). Elə birinci özüm baxıram ki, məsələn, filan aktrisa ilə bədən quruluşum bənzərdir. Mənə olursa, deməli, onun da əynində yaxşı oturacaq və sair. Çox vaxt tikdiyim paltara vurulub "Bu nə qəşəngdir, gərək birini də özümə tikim" dediyim məqamlar da olur. İnanırsınız, bu, söz olaraq da qalır. Nə zamanım olur, nə də həvəsim. Elə bil paltarı tikə-tikə onu əynimdə təsəvvür edib, zövqü alıram. Beləcə, marağım azalır.

*– Teatrda olduğunuz müddətdə sizin üçün nələr dəyişdi?*

– Təcrübə sayəsində insanları tanımağı öyrəndim. Özüm öz yerimi bildiyimdən hər kəsin də yerini bilir və dil tapıram.

*– Öz aramızdır, sizin otaqda da çox sözlər danışılıb. İllərdən bu yana, Allah bilir, boğçada nə söhbətlər var...*

– (gülür) Elə o boğça bağlı qalsa yaxşıdır. Bir də adamın yanında söz danışarlar da. Onlar danışır, mən tikirəm. Nəyimə lazımdır? Qoşulmuram. Əksinə, xəbər alanda da deyirəm bilmirəm, eşitməmişəm, görməmişəm. Özü də intriqa təkcə teatrlarda olmur ki, elə həyatda da elədir. Hər zaman orta xətti saxlamağa, qalmaqalı yatırmağa çalışıram.

*– Sənət adamları həssas olurlar, yoxsa tələbkar?*

– Fərqli xarakterli insanlarla işləyirik. Həm də bilirik ki, onlar səhnəyə çıxacaq, rol oynayacaq. Onların ovqatını korlaya bilmərik. Aktyor səhnədə özünü rahat hiss eləməlidir. Bunun başlıca səbəblərindən biri də geyimdir. Çünki geyim özümüzə güvənin, görkəmimizdən məmnuniyyətin ilk mərhələsidir...

*– Aktrisalarla, ümumən sənət adamları ilə dostluq edirsinizmi?*

– Yox, həyat tərzim başqadır. Adi həyatda da yaxın rəfiqəm yoxdur. Mənim üçün ailəm var, doğmalarım var.

***

Söhbətin bundan sonrakı hissəsində teatrın mətbuat katibi Fəridə Rüstəmova da iştirak etdiyindən bir növ "qadın müzakirə klubu" formatına keçdik. Sonda hamılıqla razılığa gəldik ki, qadınları anlamaq çətindir. Amma həm də mümkündür...

Söhbət zamanı qəhrəmanımızın timsalında bir daha onu da yəqin etdim ki, "Dərzi öz söküyünü tikmir" və ya "Aləmi bəzər, özü..." kimi deyimlərin ünvanları, əslində, peşəsinə vurğunlardır. Çünki onların ən sevdiyi iş başqalarının gözəl geyimindən zövq alaraq daha yaxşısını tikmək üçün daim çalışmaqdır. Dəb isə yəqin bunun davamıdır. Dünya dəbinin ikonası sayılan Koko Şanelin fikrincə, dəbdən düşən paltarlar deyil, elə dəbin özüdür...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 13 – 16 iyul

### Azərbaycan

**13 iyul 1889** – Maarif və mədəniyyət xadimi Xosrov Mirzə Əli oğlu Axundzadə (1889–1960) Şuşada anadan olub.

**13 iyul 1910** – Yazıçı-dramaturq, tərcüməçi Nağı Kərim oğlu Nağıyev (1910–1981) Naxçıvan MR Culfa rayonunun Yaycı kəndində anadan olub.

**13 iyul 1926** – Xalq rəssamı Vidadi Yaqub-Fərman oğlu Nərimanbəyov (1926–2001) anadan olub. "Yolda", "Xatirələr", 20 Yanvar mövzusunda "Qatillər" tabloları və s. əsərlərin müəllifidir. 20-dək ölkədə sərgisi keçirilib.

**13 iyul 1936** – Kinooperator, rejissor, Əməkdar incəsənət xadimi Rasim Rza oğlu İsmayılov (1936 – 4.5.2004) anadan olub. "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Babək" və s. filmlərin quruluşçu operatoru olub. "Şir evdən getdi", "Sizi dünyalar qədər sevirdim" və s. bədii filmlərə quruluş verib.

**13 iyul 1946** – Bəstəkar Eldar Səid oğlu Rüstəmov (1946–2010) anadan olub. Romans, süita, oda və s. janrlarda əsərlər, filmlərə musiqilər yazıb.

**13 iyul 2001** – Xalq şairi Mirvarid Paşa qızı Dilbazi (19.8.1912 – 2001) vəfat edib. . "Məhəbbət", "Partizan Aliyə", "Ana ürəyi" poemaları, "Bənövşələr üşüyəndə", "Yasəmən fəsli" və s. kitabların müəllifidir. Rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

**14 iyul 1905** – Aşıq Alıxan Qarayazılı (Alıxan Qurban oğlu Ömərov; 1905–1998) Gürcüstanın Qarayazı bölgəsinin Kosalı kəndində anadan olub.

**14 iyul 1914** – Ədəbiyyatşünas, tərcüməçi Kövsər Məmməd qızı Tarıverdiyeva (1914–2014) İrəvan şəhərində doğulub. 50 ildən çox Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan ədəbiyyatı tarixini tədris edib.

**15 iyul 1925** – Xalq artisti, müğənni-pianoçu, professor Rauf İsrafil oğlu Atakişiyev (1925 – 3.2.1994) Bakıda anadan olub. 1953-cü ildən Akademik Opera və Balet Teatrının solisti olub, bir çox xarici ölkələrdə çıxış edib.

**15 iyul 1926** – Xalq artisti Sədayə İsmayıl qızı Mustafayeva (1926 – 13.8.2004) Şəkidə anadan olub. Şəki, Gəncə Dram teatrlarında çalışıb, filmlərdə ("Mən ki gözəl deyildim", "Ölsəm, bağışla", "Həm ziyarət, həm ticarət" və s.) yaddaqalan obrazlar yaradıb.

**15 iyul 1928** – Tanınmış tərcüməçi Mehdi Mirkişi oğlu Mirkişiyev (1928–1992) Cəbrayıl rayonunun Mirzəcanlı kəndində anadan olub. Rus dilindən çoxsaylı ədəbi tərcümələr edib.

**15 iyul 1930** – Bəstəkar, Xalq artisti, professor Azər Hüseyn oğlu Rzayev (1930 –14.12.2015) anadan olub. "Bakı-90" simfoniyası, kamera orkestri üçün "Noktürn" və s. əsərlərin müəllifidir. Filarmoniyanın bədii rəhbəri, Opera və Balet Teatrının direktoru olub.

**16 iyul 1913** – Xalq artisti, müğənni Mirzə Əbdülcabbar oğlu Babayev (1913 – 13.1.2003) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, filmlərdə ("Telefonçu qız", "Dərviş Parisi partladır", "Dəli Kür" və s.) maraqlı rollar oynayıb.

**16 iyul 1934** – Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Həsən oğlu Əliyev (1934 – 13.11.2021) anadan olub. Bakı şəhərinin baş memarı (1974–1988) işləyib. Bir sıra mədəniyyət saraylarının, Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin (Ö.Eldarovla birlikdə) layihə müəllifidir.

**16 iyul 1949** – Əməkdar artist, bəstəkar, skripka ifaçısı Fərhəng Rəhim oğlu Hüseynov (1949 – 16.2. 2010) anadan olub. Yaponiyada "İpək Yolu" müsabiqəsinin (1991) qalibi kimi "Kodayu" operasını yazıb, simfonik əsərlər müəllifidir.

**16 iyul 1958** – Xalq artisti İlham Təvəkkül oğlu Əsgərov (1958 – 6.9.2015) Masallı rayonunun Xoşçobanlı kəndində doğulub. Milli Dram Teatrında, televiziya tamaşalarında, filmlərdə ("Doğma sahillər", "Biz qayıdacağıq") maraqlı rollar oynayıb. Filmlərin səsləndirilməsində iştirak edib.

**16 iyul 2022** – Azərbaycan telejurnalistikasının tanınmış simalarından biri, Əməkdar jurnalist Mais Məmmədov (12.7.1938 – 2022) vəfat edib.

### Dünya

**13 iyul 1841** – Avstriya memarı, müasir Avropa memarlığının banilərindən biri Otto Vaqner (Otto Koloman Wagner; 1841–1918) anadan olub.

**13 iyul 1923** – SSRİ Xalq artisti Mixail Puqovkin (1923–2008) anadan olub. Əksəriyyəti komediya olmaqla 100-dək filmdə ("I" əməliyyatı...", "Sportloto-82", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.) çəkilib.

**14 iyul 1860** – Rus tarixçisi, şair, yazıçı və publisist Vasili Lvoviç Veliçko (1860–1904) anadan olub. Bir çox tarixi gerçəklərə işıq salan "Qafqaz" kitabının müəllifidir.

**14 iyul 1903** – Amerika yazıçısı İrvinq Stoun (İrving Stone; 1903–1989) anadan olub. Görkəmli insanlar haqqında bioqrafik romanların müəllifidir.

**14 iyul 1904** – Yəhudi əsilli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1978) İsaak Başevis-Zinger (İsaac Bashevis Singer; 1904–1991) anadan olub. Əsərləri: "Şeytan", "Nicatverən günahkar", "Muskat ailəsi" və s.

**14 iyul 1918** – İsveç rejissoru, ssenarist və yazıçı İnqrid Berqman (Ernst İngmar Bergman; 1918 – 30.7.2007) anadan olub. "Yeddinci möhür", "Yay gecəsinin təbəssümü", "Pıçıltı və qışqırıq" və s. filmlərə quruluş verib.

**14 iyul 1928** – Gürcü yazıçısı Nodar Dumbadze (1928–1984) anadan olub. "Mən, nənəm, İliko və İllarion", "Ağ bayraqlar" romanları, "Kukaraça" povesti və s. əsərlərin müəllifidir.

**15 iyul 1606** – Holland rəssamı Rembrandt Hermens Van Reyn (Rembrandt Harmenszoon van Rijn; 1606 – 4.10.1669) anadan olub. Məşhur əsərləri: "Samson və Dalila", "Valtasar qonaqlığı", "Danaya", "Avropanın oğurlanması" və s.

**15 iyul 1901** – İtalyan filosofu, ekzistensializmin tanınmış simalarından biri Nikola Abbanyano (Nicola Abbagnano; 1901–1990) anadan olub.

**15 iyul 1919** – İngilis yazıçısı Ayris Merdok (Jean Iris Murdoch; 1919–1999) anadan olub. "Tor altında", "Dəniz, dəniz", "Mələklər zamanı", "Qara şahzadə" və s. romanların müəllifidir.

**15 iyul 1924** – Çeçen rəqqası, SSRİ Xalq artisti Mahmud Esenbayev (1924–2000) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında rəqqasa həsr olunmuş "Əmək və qızılgül" ("Mən rəqs edəcəyəm") filmi (rejissor Tofiq Tağızadə) çəkilib.

**16 iyul 1723** – İngilis rəssamı və incəsənət nəzəriyyəçisi Coşua Reynolds (Joshua Reynolds; 1723–1792) anadan olub. Məşhur əsərləri: "Veneranın kəmərini açan Amur", "İlanı boğan balaca Herkules" və s.

**16 iyul 1911** – Amerikalı aktrisa və rəqqasə, "Oskar" mükafatı laureatı Cincer Rocers (Ginger Rogers – əsl adı Virginia Katherine McMath; 1911–1995) anadan olub.

**16 iyul 1928** – Məşhur rus şairi Andey Dementyev (1928 – 26.6.2018) anadan olub. Populyar mahnıların sözlərinin müəllifidir.

**Hazırladı: V.Orxan**

# "Günay" teatr studiyası da mövsümə yekun vurub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki Bakı Uşaq və Gənclər Teatrının "Günay" uşaq teatr studiyası 21-ci mövsümünü başa vurub.

Balaca aktyorlar Qusar Dövlət Ləzgi Dram Teatrının səhnəsində Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası əsasında tamaşa-kompozisiya təqdim ediblər.

"Günay" teatrı bu mövsümdə çox fəal işləyib. Teatrın səhnəsində Rəsul Həmzətovun 100 illik yubileyi ilə bağlı tamaşa, rus şairi və yazıçısı M.Lermontovun anadan olmasının 210 illiyinə həsr olunmuş, eləcə də "Puşkinin nağılları" və S.Yeseninin əsərləri əsasında tamaşa-kompozisiyalar, "Əjdaha – 24" Yeni il şousu və digər tədbirlər təşkil edilib.



# UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin illik konfransı

## Azərbaycan nümayəndə heyəti də iştirak edib

UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin "Gəncləri masaya dəvət edirik" mövzusunda illik konfransı 1-5 iyul tarixlərində Portuqaliyanın Braqa şəhərində keçirilib.

Ölkə başçının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər planına uyğun olaraq, mədəniyyət və yaradıcı sənayelər (MYS) üzrə ixrac imkanlarının genişlənməsinə yönələn təşviq mexanizmlərinin yaradılması məqsədilə Mədəniyyət Nazirliyinin nümayəndə heyəti də konfransda iştirak edib.

Üzv şəhərlərə öz təcrübələrini bölüşmək, şəbəkə daxilində yeni əlaqələr yaratmaq və şəbəkə katibliyi və digər maraqlı tərəflərlə informasiya mübadiləsi aparmaq imkanı yaratmaq baxımından konfrans əhəmiyyətli platformadır.




Beş gün davam edən konfransda tematik sessiyalar, altşəbəkə görüşləri, şəhər merlərinin forumu, müxtəlif mədəni tədbirlər təşkil olunub. Tədbirin gedişində həmçinin iştirakçılara bir sıra ölkələrin mədəniyyət müəssisələri və digər dövlət qurumlarının fəaliyyəti ilə tanış olmaq imkanı yaradılıb, şəbəkə çərçivəsində atılacaq növbəti addımlarla bağlı fikirlər səsləndirilib.

Nazirliyin nümayəndələrinin MYS sahəsində beynəlxalq səviyyəli ekspertlər və şəbəkəyə üzv olan bir sıra şəhərlərin sənaye nümayəndələri ilə görüşləri keçirilib. MYS üzrə məhsul və xidmətlərin ixracının təşviqi istiqamətində birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

Eyni zamanda görüş iştirakçılarına UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə ölkəmizdən üzv olan Bakı, Şəki və Lənkəran şəhərlərində gedən inkişaf prosesləri barədə məlumat verilib.

# Çox əhali, yoxsa uzun ömür?

## Dünya əhalisi ilə bağlı yeni hesabat

11 iyul – Dünya Əhali Günü (World Population Day) ilə bağlı BMT-nin Əhali Fondu (UNFPA) yeni hesabat yayıb. Qeyd edək ki, bu gün 1987-ci ilin 11 iyulunda Yer kürəsi əhalisinin sayının 5 milyardı keçməsi ilə bağlı təsis olunub.

UNFPA-nın hesabatında qeyd olunur ki, 2023-cü ildə Hindistan ən çox əhalisi (1 milyard 429 milyon nəfər) olan ölkə olub. İkinci yerdə Çin (1 milyard 426 milyon nəfər), üçüncü yerdə ABŞ-dir (340 milyon nəfər). Bu üç ölkədə dünya əhalisinin 39,7 %-i yaşayır.

Ölkələrin ümumi əhalisi içərisində 0-17 yaş qrupu üzrə ən yüksək göstərici Niger və Mərkəzi Afrika Respublikasında (55,5%) qeydə alınıb. Uşaq əhalisinin ən az olduğu ölkə isə Cənubi Koreya (13,9%) və Yaponiya (14,1%) olub. Avropa İttifaqı (Aİ) ölkələri üzrə bu kateqoriyada İrlandiya (əhalinin 23,3%-i 0-17 yaş qrupundadır) öndədir. Uşaq əhalisinin nisbətinin ən aşağı olduğu Aİ ölkəsi İtaliyadır (15,1%).

15-24 yaş qrupunda Suriya dünyada 1-ci yerdədir – ölkə əhalisinin 24,1%-i. Ən aşağı gənclər nisbətinə malik ölkə isə Ukrayna (6,8%) olub. Bu göstəricidə Ukraynada davam edən müharibədəki qırğınlar, eləcə də gənclərin ölkəni tərk etməsi amilləri özünü göstərir. Aİ-yə üzv olan ölkələr arasında gənc əhali nisbəti yenə İrlandiyada (əhalinin 13,1%-i) yüksəkdir.

65 və daha yuxarı yaşda olan əhalinin sayına görə ("cırtdan" Monakonu hesaba almasaq) Yaponiya (əhalinin 30,1%-i) və İtaliya (24,5%) ön sıralardadır. Yaşlı əhalinin ən aşağı nisbətinə malik ölkə isə 1,6% ilə Qətər olub.



UNFPA-nın hesabatında 2023-cü il üçün dünya üzrə orta ömür müddəti 73,4 yaş göstərilib. Bu göstərici kişilər üçün 70,8, qadınlar üçün isə 76 yaş olub. Dünyada kişilər arasında ömür uzunluğunun ən yüksək olduğu ölkələr Monako (85,2 il), Lixtenşteyn (83,2 il) və İsveçrədir (82,6 il) .

Qadınlar üçün gözlənilən ömür uzunluğuna görə də Monako birinci (89 il) olub. Yaponiyada göstərici 88 il, Cənubi Koreyada 87,2 il ildir. Aİ ölkələr üzrə bu kateqoriyada ən yüksək göstərici (86,7 il) İspaniyadadır.

# Necə qocalırıq?

## Süni intellekt proqnoz verəcək

İnsanların üzlərinin hərarətini ölçməklə onların sağlamlıq vəziyyətini və qocalma dərəcəsini müəyyən etmək üçün üsul hazırlanıb. Süni intellektə əsaslanan texnologiyanın müxtəlif xəstəliklərin erkən diaqnozunu təxmin edəcəyi gözlənilir.



Alimlər üzün müxtəlif hissələrində temperaturun dəyişməsi ilə xəstəliklər arasında əlaqəni aşkar etmək üçün araşdırma aparıblar. Bu termal məlumatlarla öyrədilmiş süni intellekt modeli daha sonra müxtəlif bölgələrdəki temperaturlara baxaraq iştirakçıların istilik yaşını, yəni bioloji yaşlarını temperatur əsasında təxmin edib.

Çində aparılan araşdırmaya rəhbərlik edən Jing-Dong Jackie Han bildirib ki, "ThermoFace" adlanan üsul, metabolik xəstəliklərdən əziyyət çəkən insanların göz bölgəsinin daha isti olduğunu və daha sürətli termal yaşlanma göstərdiyini ortaya qoyub. O qeyd edib ki, "ThermoFace" müxtəlif testlərə və qan nümunələrinə ehtiyac olmadan, sadəcə olaraq, üz temperaturunu ölçməklə xəstəliklərə diaqnoz qoya bilər.

"Hüceyrə metabolizmi" jurnalında dərc edilən araşdırma yaşlandıqca burun və yanaqların daha da soyuduğunu müəyyənləşdirib. İştirakçıların qan nümunələrini təhlil edən alimlər göz və yanaq ətrafında temperaturun artmasının daha çox iltihabla əlaqəli olduğunu müşahidə edib. Metod hələ başlanğıc mərhələsindədir, lakin tədqiqatçılar erkən diaqnoz qoya bilən bu tətbiqin xəstəxanalarda istifadə ediləcəyinə ümidvardırlar.

# Nümunəvi turistlər üçün güzəştlər

İyulun 15-dən etibarən Danimarkanın paytaxtı Kopenhagenə gələn və ekoloji cəhətdən məsuliyyətli davranış nümayiş etdirən (məsələn, avtomobillər əvəzinə velosipeddən istifadə edən və ya qatarla səyahətə üstünlük verən) turistlər muzeylərə pulsuz gedə, ödənişsiz baydarka icarəyə götürə və hətta qəlyanaltı edə biləcəklər. Yerli hakimiyyət orqanları turistləri məsuliyyətli davranmağa təşviq etmək üçün bu qərarı qəbul edib.



"CopenPay" adlanan təşəbbüs ekoloji cəhətdən yaxşı davranışı şəhər müəssisələrindən istifadənin ödənilməsi üçün bir növ "valyuta" formasına çevirməyi nəzərdə tutur.

"CopenHill" süni xizək yamacına çıxmaq istəyənlər oraya velosiped və ya qatarla çatsalar, oradan pulsuz enə biləcəklər. Danimarka milli qalereyasına plastik tullantılarla gələn ziyarətçilər onları sənət əsərinə çevirmək üçün ustad dərslərində iştirak edə bilərlər.

Karen Bliksen Muzeyində bağlara qulluq etməyə kömək edənlər məşhur yazıçının evinə pulsuz giriş əldə edə biləcəklər. Şəhərin yeraltı sərgi salonuna çevrilmiş keçmiş su anbarına ziyarətçilər, sadəcə, piyada və ya velosipedlə gəlsələr, ödənişsiz bələdçi turu qazanacaqlar.

Kopenhagenin 24 mədəniyyət və əyləncə mərkəzi artıq bu yay sözügedən təşəbbüsdə iştirak etməyə razılıq verib. Səlahiyyətli orqanlar ekoloji cəhətdən məsuliyyətli turistlərin sayının əvvəlcə az olacağını güman edirlər və "CopenPay" sxeminin avqustun 11-dək davam edəcəyini bildirirlər. Layihə uğurlu olarsa, o ilboyu davam etdiriləcək.

Dövlət statistikasına görə, ötən il Danimarkada bir gecə və ya daha uzun müddət qalan 12 milyondan çox turist qeydə alınıb.

# Gələcəyə doğru rasional yanaşma

## ICESCO Qərbin "Quran"a münasibəti ilə bağlı seminar keçirib

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) mənzil qərargahının yerləşdiyi Rabat şəhərində (Mərakeş) "Qərb və "Quran": Gələcəyə doğru rasional yanaşma" mövzusunda ilk beynəlxalq seminar keçirib. Seminar Almaniya Dialoq və Anlaşma İnstitutu ilə birgə təşkil edilib.




ICESCO-nun Sivilizasiyalararası Dialoq Mərkəzinin rəhbəri, səfir Xalid Fətəhəlrəhman seminarın mövzusunun dünya müsəlmanları üçün əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, tədbirin müxtəlif sessiyalarında ərəb və islamşünaslıq, eləcə də dinlərarası dialoq üzrə eksper və alimlər qrupunun zəngin töhfələri olacaq.

ICESCO-nun baş direktoru Salim əl-Malik çıxışında "Quran"ın insana olan dərin təsirini vurğulayaraq, onu başqalarına münasibətin formalaşmasında ən təsirli kitab kimi xarakterizə edib. Bildirib ki, Qərb sivilizasiyası irsinin və onun qlobal insan münasibətlərindəki təzahürlərinin "Quran"la münasibətlərdə xüsusiyyətləri də seminarın müzakirə dairəsinə daxildir.

Baş direktor, həmçinin "Qurani-Kərim"ə qarşı böhtan kampaniyaları əleyhinə rasional yanaşmanın ən optimal yol olduğunu vurğulayıb. O əlavə edib ki, bu yanaşma müqəddəs dəyərlərə hörmətdən və ifadə azadlığı prinsiplərini qoruyub saxlamaqla başqalarının hüquqlarını təmin etməkdən ibarətdir.

# Türkiyə universitetlərində ixtisarlar

Türkiyənin dövlət universitetlərində axşam proqramlarının bağlanmasına qərar verilib. Memarlıq, əczaçılıq, psixologiya, qidalanma-diyetoloq kimi elm proqramlarına qəbul kvotası məhdudlaşdırılır.



Türkiyənin Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvar yeni qərarın ali təhsil müəssisələrində proqram keyfiyyətinin yüksəldilməsi məqsədi daşıdığını bildirib. Qeyd edib ki, dövlət və vəqf universitetlərinin axşam təhsil proqramları məşğulluğa və gələcəyin peşələrinə uyğun proqramlarla əvəzlənəcək.

Qeyd edək ki, ötən tədris ilində Türkiyə universitetlərində ümumilikdə 1308 axşam proqramı əsasında təxminən 80 min tələbə təhsil alıb.

# Özbəkistanda Fərabinin əlyazması tapılıb

Özbəkistanın Namanqan vilayətində böyük Şərq mütəfəkkiri və alimi Əbu Nəsr Fərabinin əlyazmaları, habelə qədim silah və sikkələr tapılıb. Qiymətli tapıntılar Aksikent Arxeoloji Parkının ərazisindəki "Yenqi Aksi" kompleksində nümayiş etdiriləcək.



"Yenqi Aksi" kompleksinin eksponatlar fondu XI–XIV əsrlərə aid daha on qiymətli eksponat, o cümlədən Baktriya və Çin sikkələri, eləcə də Əbu Nəsr Fərabinin qədim əlyazması ilə zənginləşib.

Namanqanda tapılan qılınc XI əsrə aid edilir. Bu yaraq döyüşdən sonra qaldığı vəziyyətdə qorunub saxlanılıb. Qılınc Aksikent dəmirçiləri tərəfindən bərk poladdan hazırlanıb.

Baktriya sikkəsi 475–600-cü illərə, Çin sikkəsi isə XIX əsrə aiddir. Fərabinin yeni tapılan əlyazmaları fəlsəfə və tarixlə bağlıdır və unikal bilikləri ehtiva edir.

Lənkəran Dövlət Dram Teatrının direktoru Laləzar Hüseynova və kollektivi teatrın keçmiş direktoru Tofiq Heydərova qardaşı

**Yaşarın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

# Tarixdə bu gün

## Olaylar, faktlar (13 – 16 iyul)

Xronoqraf

### 235 il əvvəl...



**14 iyul 1789-cu ildə** Fransada inqilab baş verib. Üsyançı kütlələr Parisdəki Bastiliya qalasını ələ keçirib. XIV əsrdə inşa edilən Bastiliya Fransada mütləqiyyətin simvolu sayılırdı. Bir il sonra qala uçuruldu. Bastiliyanın alınması ilə başlanan inqilabi sarsıntılar bütün Avropada rezonans doğurdu. 14 iyul Fransanın milli bayramı kimi qeyd olunur.

### 220 il əvvəl...

**16 iyul 1804-cü ildə** Birinci Rusiya-İran müharibəsi (1804–1813) başlanıb. Müharibənin ilkin nəticəsi olaraq imzalanan Kürəkçay müqavilələrinə (14 və 21 may 1805-ci il) əsasən, Azərbaycanın Qarabağ və Şəki xanlıqları Rusiyaya ilhaq edilib.

### 183 il əvvəl...

**15 iyul 1841-ci ildə** Londonda İstanbul boğazları (Aralıq və Qara dənizləri birləşdirən Bosfor və Çanaqqala (Dardanel) boğazları) haqqında konvensiya imzalanıb. Osmanlı imperiyası, Britaniya, Fransa, Rusiya, Prussiya və Avstriya arasında imzalanan sənədə əsasən, boğazlardan xarici gəmilərin keçməsinə icazəni ancaq Osmanlı dövləti verə bilərdi.



### 106 il əvvəl...

**15 iyul 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1918-ci ilin martında daşnak-bolşevik dəstələrinin azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətlərinin araşdırılması üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıb.

### 55 il əvvəl...

**14 iyul 1969-cu ildə** Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda təşkilati məsələyə baxılıb. KP MK-nın I katibi Vəli Axundovun istefası qəbul olunub. Plenum yekdil qərarla Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyevi Azərbaycan KP MK-nın I katibi seçib. Bu, Azərbaycanın yeni tarixində güclü lider kimi müstəsna yer tutacaq şəxsiyyətin böyük siyasətə və hakimiyyətə gəlişi idi.

### 26 il əvvəl...

**14 iyul 1998-ci ildə** Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılıb. Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Hakimlər Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Milli Məclis tərəfindən 15 il müddətinə təyin olunurlar. Məhkəmənin sədri və sədr müavini Prezident tərəfindən təyin edilir. Konstitusiya Məhkəməsinin qərarları qətidir, ləğv edilə, dəyişdirilə və rəsmi təfsir oluna bilməz.

### 18 il əvvəl...




**13 iyul 2006-cı ildə** Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan (Adana vilayəti) limanında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılışı keçirilib. Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri iştirak ediblər. İnşası 2002-ci ildə başlanan kəmərin uzunluğu 1768 km (443 km Azərbaycan, 249 km Gürcüstan, 1076 km Türkiyə ərazisində), gündəlik nəqletmə gücü 1 milyon bareldir.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1561
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641